RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 30 (8909) CÜMƏ AXŞAMI, 10 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Tanrı köməyi

*Ən çətin günümüzdə, adətən, Tanrıya üz tuturuq!*
*Ən ağır məqamda Allaha yalvararaq ondan kömək istəyirik!*
*Gücümüz çatmayan işdən təkbaşına yapışanda Allahdan güc, qüvvət diləyirik!*
**Həmişə də belə hesab etmişik və həm də görmüşük ki, Tanrı bizimlə olmayanda, öz köməyini göstərməyəndə niyyətimizə çata bilmirik!**
*Bəs Allah bizə nə sayaq kömək göstərir, hansı formada dayaq durur, dadımıza necə çatır? - heç bu barədə dərindən düşünürükmü?!*
İki toxunulası vacib məqam da var:
*Əvvəla,* Tanrı heç də bütün çağırışları eşidib, dərhal kömək əlini uzatmır.
Yoxsa, atalar demişkən, qaçan da “ya Allah” deyir, qovan da “ya Allah” deyir!
Başqa sözlə, hər iki tərəf işə başlayanda Tanrıdan kömək istəyir!
Hansına kömək göstərilməsi isə bəndənin müəyyən edəcəyi məsələ deyil, Tanrılıqdır!
*İkincisi,* Allah təkcə istəyənə yox, ən əvvəl işi görənə, işə başlayana arxa durar!
Yoxsa, bütün günü evdə, məsciddə oturub yalvarmaqla, dua etməklə heç zaman iş irəli getməz!

❖ ❖ ❖

**Uzun illər boyu Tanrı bizi sanki eşitmirdi...**
**Yalvarışlarımızı cavabsız qoyurdu...**
Anlamırdıq, günahımız nəydi?!
*Bəlkə sovet dövründə məscidlərə az getməyimiz, oruc tutmamağımız, digər dini ayinləri yerinə yetirməməyimizə görə?!*
*Bəlkə elmi ateizm dərslərində qiymət almaq üçün Tanrının varlığını danmaq məcburiyyətində qaldığımıza görə?!*
*Bəlkə dünyanın ən yalançı, ən bic, ən yaltaq və ən alçaq milləti ilə qonşuluq etdiyimizə görə?!*
**Amma bunların da hamısı Tanrının iradəsi ilə baş vermişdi!**
Sovet hakimiyyəti çox güclü, əzazil, qəddar və qaniçən quruluş idi!
Onun yetmiş illik mövcudluğu dövründə 50 milyondan çox adam öz əcəli ilə ölməyib, müxtəlif üsul və vasitələrlə öldürülüb!
Sovetin mükəmməl repressiya sistemi, cəza mexanizmləri vardı.
Fərqli bir ideologiyaya, kommunizm xülyasına xidmət edirdi...

*Ardı 3-cü səh.*

# Prezidentin yeni sərəncamından 1,1 milyon pensiyaçı yararlanacaq

Prezident İlham Əliyev tərəfindən “Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 2022-ci il 8 fevral tarixli sərəncamı həssas kateqoriyadan olan vətəndaşlara diqqətin daha bir təzahürüdür.

Bu sənədin imzalanmasında məqsəd COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı qiymət artımlarının ölkədaxili inflyasiyaya və əmək pensiyaçılarının sosial rifahına təsirlərin yumşaldılmasına xidmət edir.

İmzalanan yeni sərəncamla cari il yanvarın 1-dən təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi 2021-ci il üzrə orta aylıq nominal əməkhaqqının artım tempinə uyğun indeksləşdirilərək bu il yanvarın 1-dən artırılacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birlikdə veriləcək.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, ötən il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempi 3,4 faiz olub. Dövlət pensiyaçılara ilk dəfə daha bir güzəşt də edir. Belə ki, bu artımla bərabər, sərəncama əsasən, sığorta prinsipi ilə pensiya alanlara cari il üzrə 200 manat məbləğində maddi yardım da göstərilir. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək. Bu həftə ərzində pensiyaların yeni artımla birgə ödənişlərin verilməsinə başlanılacaq.

*Bax: səh. 5*



# Böyük Zəfərin möhtəşəm yolları



## İlham Əliyevin Qarabağda və Şərqi Zəngəzurda təməlini qoyduğu modern yol infrastrukturları tezliklə istifadəyə veriləcək



**Şanlı Zəfərimizlə bitən Vətən müharibəsindən ötən bir il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında başlanan tikinti-quruculuq işləri bu gün sürətlə davam edir.**

Əlbəttə ki, ilk növbədə, bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün yolların yenidən qurulması xüsusi əhəmiyyətə malikdir. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.

Hazırda dövlət büdcəsindən ayrılmış vəsait hesabına 11 avtomobil yolu - *Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Xudafərin - Qubadlı - Laçın, Qubadlı - Eyvazlı, Şükürbəyli - Cəbrayıl - Hadrut, Füzuli - Hadrut, Bərdə - Ağdam, Talış - Tapqaraqoyunlu - Qaşaltı - Naftalan, Toğanalı - Kəlbəcər - İstisu, Kəlbəcər - Laçın avtomobil yolları və Kəlbəcər, Laçın* ərazisində yol infrastrukturunun tikintisi davam etdirilir.

### 4 yaşayış məntəqəsini birləşdirən yol

Prezident İlham Əliyev tərəfindən 2021-ci il oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyasına gedən avtomobil yolunun inşası davam etdirilir.

Avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlət başçısının tapşırığı ilə icra edilən və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. 4 yaşayış məntəqəsini birləşdirən yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcək. Prezidentin tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla, avtomobil yolunun 19 kilometrlik hissəsi II, 3 kilometrlik hissəsi isə IV texniki dərəcəyə uyğun inşa edilir. Müvafiq olaraq yolun layihə üzrə hərəkət hissəsinin eni 19 kilometrlik hissədə 9 metr, 3 kilometrlik hissədə isə 6 metr, torpaq yatağının eni 14 və 10 metr, çiyin hissələrin eni isə 2x2.5 (5 m) və 2x2 (4 m) metr təşkil edəcək.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Yolun ilk 1,8 kilometrlik hissəsində asfaltlanma işləri icra olunub və səki daşları yeniləri ilə əvəzlənib. Yolun 19 kilometrlik hissəsində layihəyə uyğun olaraq torpaq yatağı tikintisi aparılıb. Bunun üçün yararsız qrunt suyu müxtəlif dərinliklərdə qazılaraq çıxarılıb, əks-dolğu işləri aparılmaqla kipləşdirilib. Yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün yararlı qrunt tökülərək yayılıb, yol yatağı genişləndirilib.

Avtomobil yolunun altından suların ötürülməsini təmin etmək məqsədilə mövcud borular yeniləri ilə əvəzlənib, lazım olan yerlərdə isə əlavə olaraq suötürücü boruların quraşdırılması işləri icra edilir. Torpaq yatağı hazır olan hissələrdə yol əsası inşa edilir. Sonra layihəyə uyğun olaraq yola yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunacaq.

Layihə çərçivəsində İncə çayı üzərində yeni avtomobil körpüsünün tikintisi də nəzərdə tutulur. Layihənin sonuncu mərhələsində avtobus dayanacaqlarının inşası, avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə yol nişanı, kilometr göstəricisi və məlumatverici lövhələrin quraşdırılması işləri aparılacaq.

*Ardı 4-cü səh.*

# “Cənub qaz dəhlizi”nin genişləndirilməsi günün tələbinə çevrilir

## İstehsalçı, istehlakçı, tranzit ölkələrin səlahiyyətli nümayəndələri bu barədə nə deyirlər

**“Cənub qaz dəhlizi” enerji təhlükəsizliyinin təminatındakı strateji əhəmiyyətini Avropa ölkələri arasındakı interkonnektorlarla Qərbi Balkanlara və qitənin digər hissələrinədək genişləndirə bilər.**




Bu məqsədlə istehlakçılarla müqavilələrin imzalanması, investisiyaların yatırılması və qaz hasilatının artırılması, həmçinin interkonnektorların qurulması kimi prosesləri əhatə edən yeni bir fəaliyyət mərhələsinə başlamaq aktuallaşır. Cari il fevralın 4-də Bakıda keçirilən “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin 8-ci toplantısında məhz bu məsələnin əsas müzakirə mövzularından biri olması təsadüfi deyil. Prezident İlham Əliyevin dediyi kimi, “Cənub qaz dəhlizi” layihəsi başa çatıb, bizim işimiz isə davam edir”.

*Ardı 7-ci səh.*

# Koçaryan-Sarkisyan koalisiyasına növbəti zərbə

## Ermənistanda qeyri-sabit siyasi-iqtisadi vəziyyətə görə intiharların sayı artır, burada yaşayan əcnəbilər isə qaçırlar

**Ermənistanda siyasi baxımdan vəziyyət kifayət qədər gərgin hesab edilir. Mövcud hakimiyyətlə keçmiş hərbi xunta arasında münasibətlərin daha da gərginləşəcəyinə dair verilən proqnozlar isə özünü doğruldur.**

Hakimiyyətdə dayaqlarını daha da gücləndirən baş nazir Nikol Paşinyan Koçaryan-Sarkisyan koalisiyasını sıradan çıxarmaq üçün yenidən hərəkətə keçib.

Bu xüsusda növbəti zərbə üçün Ermənistan hakimiyyəti hüquqi müstəvidə addımlar atıb. Belə ki, İrəvan məhkəməsi ötən həftə Zəngəzur vilayətinin ümumi yurisdiksiyasının hakimi Boris Baxşiyanı həbs edib. O, bir müddət əvvəl könüllü dəstənin müxalif fikirli komandiri olmuş Aşot Minasyanı həbsdən azad etmişdi.

*Ardı 8-ci səh.*

# Koronavirusla bağlı ölüm halları yenidən artıb

## “Omikron” “Delta”nı çox sürətlə üstələyib

Yeni aşkarlandığı zaman SARS-CoV-2 virusunun ən sonuncu ştamı sayılan “Omikron”un ölümə səbəb olma baxımından daha zəif olduğu iddia edilsə də, son həftələrdəki mənzərələr bu iddiaları tam olaraq təsdiqləyə bilmir.

Artıq bir müddətdir ki, bütün dünyada hər həftə ərzində 3-4 milyon nəfərin COVID-19-a yoluxduğu açıqlanır. Yoluxma və ölüm hallarının əksəriyyəti əvvəllər olduğu kimi, yenə də ABŞ-da qeydə alınır. Yoluxma sayına görə ABŞ-dan sonrakı yerləri Hindistan, Braziliya, Fransa, Böyük Britaniya tutur. Ən çox ölüm hadisələri isə ABŞ-dan sonra Braziliya, Hindistan, Rusiya və Meksikada baş verir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) aparıcı epidemioloqu Mariya van Kerkhov da bildirib ki, son vaxtlar bu xəstəliklə bağlı ölüm halları artmağa başlayıb. Son dörd həftədə bütün dünyada koronavirusla bağlı ölüm hallarının kəskin artmasından çox narahat olduqlarını dilə gətirən ÜST rəsmisi “Omikron”un “Delta”nı çox sürətlə üstələdiyini açıqlayıb. Amma o, bunu da qeyd edib ki, “Omikron”un yayılması ilə bağlı yeni pandemiya dalğası özünün pik nöqtəsinə hələ bütün ölkələrdə çatmayıb.

*Ardı 7-ci səh.*



# "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232, № 12 (I kitab), maddə 2520; 2019, № 2, maddə 202, № 6, maddə 1006; 2020, № 3, maddə 224; 2021, № 3, maddə 216, № 5, maddə 429) 1-ci maddəsində "2022-ci" sözləri "2023-cü" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139, № 12 (I kitab), maddə 1469; 2021, № 2, maddə 124; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli 1500 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.4-2-ci bəndində "xüsusi vəsaitin" sözləri "vəsaitin, habelə tabeliyindəki təhsil müəssisələrinin göstərdiyi ödənişli təhsil xidmətlərindən əldə olunan gəlirlərin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2022-ci il*

# Azərbaycanın baş prokuroru Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri ilə görüşüb



Fevralın 9-da Azərbaycanın baş prokuroru Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində reallaşdırılan "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı Tvininq layihəsi üzrə ölkəmizə səfər edən Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri - tərəfdaş ölkənin layihə rəhbəri Jidrunas Bartkus və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə baş prokuror Kamran Əliyevin dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, xüsusilə də prokurorluqda həyata keçirilən islahatlardan söhbət açıb, prokurorluqda cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası və korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib. Baş prokuror Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Baş Prokurorluğun yeni strukturunda Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin təsis edilməsinin məhz bu səbəblərlə əlaqəli olmasını bildirib. Azərbaycan Prokurorluğunun Litvanın hüquq-mühafizə orqanları ilə əvvəllər reallaşdırılmış və hazırda cinayət aktivlərinin bərpası sahəsində birgə həyata keçirilən fəaliyyətinin, o cümlədən bu layihənin əməkdaşlığımızın bariz nümunəsi olduğu qeyd edilib.

Kamran Əliyev Jidrunas Bartkusu Korrupsiyaya Qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya Qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) Baş Assambleyasının iclasında bu nüfuzlu beynəlxalq təşkilatın prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, səmərəli əməkdaşlığımızın təzahürü kimi həmin tədbirdə Azərbaycan Prokurorluğunun korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi nailiyyətlərə görə EPAC/EACN-ın 2021-ci il mükafatı ilə təltif olunduğunu xatırladıb.

Baş prokuror Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) vitse-prezidenti qismində assosiasiyanın Antikorrupsiya Prokurorları Şəbəkəsi (NACP) ilə EPAC arasında əlaqəli şəkildə birgə fəaliyyətinin vacibliyini vurğulayıb.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Jidrunas Bartkus Avropa İttifaqının, o cümlədən Litvanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini və münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

J.Bartkus aktivlərin bərpası sahəsində ölkəsinin təcrübəsini paylaşaraq fikir mübadiləsinin aparılmasında maraqlı olduqlarını və bu sahədə Azərbaycanın qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasında böyük rolunun olacağını qeyd edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İşğaldan azad edilən ərazilərdə yeni hərbi hissə istifadəyə verilib







**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad olunan ərazilərdə xidmət aparan hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti işğaldan azad edilən ərazilərdə istifadəyə verilən yeni hərbi hissədə yaradılan şəraitlə tanış olub.

Məruzə olunub ki, hərbi hissədə bütün obyektlər müasir tələblərə uyğun əsaslı təmir olunaraq lazımi avadanlıq və inventarla təmin edilib. Burada istilik sistemi ilə təchiz edilmiş qərargah binası, yataqxana, ideoloji sinif, xidməti, məişət və silah otaqları, hamam-sanitar qovşağı, yeməkxana, tibb məntəqəsi var.

Bundan əlavə, hərbi qulluqçuların asudə vaxtlarının səmərəli keçirməsi üçün idman şəhərciyi salınıb. Bölmənin ərazisində abadlıq işləri aparılıb və müxtəlif növ ağaclar əkilib. Ərazi fasiləsiz elektrik enerjisi ilə təmin olunub.

Sonra müdafiə naziri avtomobil və döyüş texnikasının saxlandığı parka gəlib. Burada avtomobil və döyüş texnikasının saxlanma şəraiti ilə tanış olub, döyüş maşınları komandirlərinin məruzələrini dinləyib.

Müdafiə naziri hərbi hissənin şəxsi heyəti ilə də görüşüb. General-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun hərbi qulluqçularının, o cümlədən hərbi hissənin şəxsi heyətinin Vətən müharibəsində göstərdikləri şücaət və qəhrəmanlıqlarının dövlət başçısı tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması, eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanının yeni tapşırıqlarının icrasına hər an hazır olmalarını bir daha hərbi qulluqçuların diqqətinə çatdıran müdafiə naziri orduda aparılan islahatlar çərçivəsində müasir silah, hərbi texnika və avadanlığın alınmasının bundan sonra da davam etdiriləcəyini bildirib.

General-polkovnik Zakir Həsənov Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun inkişafı və ölkəmizin hərbi qüdrətinin artırılması sahəsində əldə olunan nailiyyətlərdən də danışıb.

Sonda müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də döyüş hazırlığının yüksək səviyyədə saxlanması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# "Moldova ilə Azərbaycan arasında siyasi münasibətlər yüksək səviyyədə inkişaf edir"



Fevralın 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan Moldova ilə dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını məmnunluqla qeyd edib və bir çox sahələrdə qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinin vacib olduğunu vurğulayıb.

Ceyhun Bayramov moldovalı həmkarına bölgədə mövcud olan münaqişə sonrası vəziyyət, üçtərəfli bəyanatların icrası və bu xüsusda Azərbaycan tərəfindən atılan addımlar, delimitasiya prosesi, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı məlumat verib.

Niku Popesku ikitərəfli münasibətlərin inkişafından məmnunluqla danışıb. O, iki ölkə arasında siyasi münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini və Moldovanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb. Hazırkı səfərin mövcud əlaqələrin inkişafına və dərinləşməsinə təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Tərəflər Azərbaycanın azad edilmiş ərazilərində infrastrukturun yenidən qurulması layihələri, bu xüsusda ərazilərin tez bir zamanda minalardan təmizlənməsinin əhəmiyyəti və bu prosesə Moldova ekspertlərinin cəlb edilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

Tərəflər iqtisadi, ticarət, enerji, humanitar, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrin inkişafı üçün mövcud potensialdan istifadə olunması ətrafında fikir mübadiləsi aparıblar. Həmçinin görüşdə iqtisadi münasibətlərə xüsusi diqqətin ayrılmasının önəmli olduğu qeyd edilib və bu xüsusda Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Görüşdə iki ölkə arasında çoxtərəfli platformalarda (BMT, ATƏT, Avropa Şurası, QDİƏT, GUAM və "Şərq Tərəfdaşlığı" təşəbbüsü) həyata keçirilən uğurlu əməkdaşlıq və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə müzakirələr aparıblar.

Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

# "Azərbaycanla Aİ ölkələri arasında qaz təchizatı sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub"



"Görüşdə bir çox sahələrdə əlaqələrdən danışdıq, iqtisadi sahədə potensialı nəzərdən keçirdik. Eyni zamanda kənd təsərrüfatı, telekommunikasiya sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi apardıq. Həmçinin parlamentlərarası əlaqələrin inkişafından və dostluq qruplarının fəaliyyətindən danışdıq. Qeyd olunan məsələlərin mütəmadi müzakirəsinə dair tərəflər arasında razılıq əldə olundu".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Moldovanın xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku ilə keçirdiyi birgə mətbuat konfransında söyləyib.

Nazir qeyd edib ki, Azərbaycanla Avropa İttifaqına üzv ölkələr arasında qaz təchizatı sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Ceyhun Bayramov deyib ki, iki ölkə arasında humanitar sahədə bir sıra yaxşı təşəbbüslər var. Məsələn, ADA Universitetində moldovalı tələbələrin təhsil alması, tələbə mübadiləsi və s.

"Biz regional təhlükəsizlik məsələsini də müzakirə etdik. Otuzillik işğala son qoyulduqdan sonra bizim üçün əsas prioritet həmin torpaqlarda yenidənqurma işlərinin aparılması və keçmiş məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtmasıdır", - deyə Ceyhun Bayramov həmkarına azad olunmuş torpaqlarımızda həyata keçirilən avtomobil və dəmir yolları, enerji, infrastrukturunun bərpası, alternativ enerji mənbələrinin yaradılması, "ağıllı kənd", "ağıllı şəhər" layihələri, inşa edilən hava limanları barədə məlumat verdiyini qeyd edib.

❖ ❖ ❖

*"Bu səfər Azərbaycan ilə Moldova arasında münasibətlərimizi gücləndirəcək. Münasibətlərimizin qurulduğu 30 il ərzində Moldova və Azərbaycan beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləyib".*

AZƏRTAC xəbər verir ki, bu sözləri Moldovanın xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə keçirdiyi birgə mətbuat konfransında deyib.

Moldovanın bölgədə sülh quruculuğu prosesinə töhfə vermək istədiyini bildirən N.Popesku ölkəsinin buna müsbət yanaşdığını qeyd edib.

Bizim siyasi tərəfdaşlığımız yüksək səviyyədədir. İqtisadi əməkdaşlığı da gücləndirmək niyyətindəyik. Enerji sahəsi bizim əməkdaşlığımızda maraqlı nüansdır", - deyə o, qeyd edib.

❖ ❖ ❖

*"Görüşdə biz iqtisadi tərəfdaşlıq haqqında da danışdıq. Moldovada Azərbaycanın 130 şirkəti fəaliyyət göstərir. Biz bu sayın artmasında maraqlıyıq".*

AZƏRTAC xəbər verir ki, bunu Moldovanın xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə keçirdiyi birgə mətbuat konfransında bildirib.

Nazir deyib ki, azərbaycanlı həmkarı ilə görüşdə həmçinin iki ölkə arasında kənd təsərrüfatı və digər sahələrdə biznes əlaqələrinin genişləndrilməsindən, mobil operatorlar üçün rouminq xərclərinin aradan qaldırılmasından danışılıb. Qeyd olunub ki, Moldova ilə Azərbaycan arasında münasibətlər daha da güclənsə, birbaşa hava əlaqəsi yaradıla bilər.

Moldovalı tələbələrin ADA Universitetində bir sıra kurslarda iştirak etdiklərini məmnunluqla diqqətə çatdıran nazir qeyd edib ki, Azərbaycan icması Moldovada fəal rola malikdir, eyni zamanda Moldova icması Azərbaycanda fəaldır, bu isə münasibətlərin güclənməsinə təkan verir.

"Şərq Tərəfdaşlığı çərçivəsində gözəl əməkdaşlığımız var. Pandemiya dövründə Azərbaycan bizə kömək etdi, dəstək göstərdi. Biz bunu yüksək qiymətləndiririk və buna görə təşəkkür edirik", - deyə N.Popesku əlavə edib.

# Leyla Abdullayeva Ermənistan XİN-ə cavab verib

"Ermənistan XİN-in yaddaşını təzələyirik: Ermənistan 30 ilə yaxın bir müddətdə Azərbaycanın ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayaraq bu ərazilərdə genişmiqyaslı qeyri-qanuni fəaliyyət, o cümlədən urbisid, kultursid və ekosid törədən bir ölkədir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva deyib.

O, qeyd edib ki, Ermənistan Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndini yer üzündən silib. Bu ərazilərdəki tarixi, mədəni, dini abidələr viran qoyulub, talan edilib.

Ermənistan işğal altında saxladığı ərazilərdə törətdiyi məqsədyönlü dağıntıları gizlətmək üçün onilliklər ərzində bu ərazilərə UNESCO missiyasının səfərinin qarşısını alıb. Bu fakt UNESCO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatında aydın şəkildə əks olunub.

Eyni zamanda Ermənistan öz ərazisindəki Azərbaycanın mədəni irsini tamamilə məhv edib.

Ermənistan son 30 ildə beynəlxalq hüququn, o cümlədən humanitar hüququn normalarını tapdalayıb; 1949-cu il Cenevrə Konvensiyasını, UNESCO-nun 1954-cü və 1970-ci illər konvensiyalarını kobud şəkildə pozub.

Ermənistanın yuxarıda sadalanan vandalizminin nəticələri beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb.

"Bütün bu qeyd edilənlər fonunda, görünür, Ermənistan XİN-i Azərbaycan Mədəniyyət Nazirliyinin bəyanatından yalan çıxarışlar edərək öz qeyri-qanuni əməllərini pərdələmək məqsədi güdür.

Lakin qonşu ölkənin rəsmi qurumu unudur ki, Ermənistandan fərqli olaraq Azərbaycan tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmir. Azərbaycan bütün dünyada tolerantlıq və mədəni müxtəliflik nümunəsidir.

Ermənistan XİN-ə tövsiyəmiz budur ki, ətəyinə yalan, uydurma, iftira dolu daşları yığmaqla özünü daha da dərin və çıxılmaz vəziyyətə salmasın, əksinə, ətəyindəki daşları ataraq, xoş niyyət və əməllər göstərməyə çalışsın", - deyə L.Abdullayeva qeyd edib.

# Azərbaycan ilə İraq arasında münasibətlərin daha da inkişaf etdirilməsinə dair müzakirələr aparılıb

Fevralın 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İraq Respublikasının xarici işlər nazirinin müavini Nazar İsa Abdulhadi Al-Xeyrullahın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ceyhun Bayramov tarixən iki xalq arasında mövcud olan münasibətlərin həm ikitərəfli, həm də çoxtərəfli müstəvilərdə inkişaf etdiyini vurğulayıb. İki ölkə arasında siyasi dialoqun səviyyəsindən məmnunluqla danışan nazir iraqlı həmkarı ilə ötən il müxtəlif beynəlxalq təbirlər çərçivəsində görüşlərinə istinad edib. Keçən il Azərbaycan Respublikası hökuməti və İraq Respublikası hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın iclasının Bakıda keçirilməsinin, habelə İraqın neft nazirinin ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığın genişlənməsinə müsbət töhfə verdiyi qeyd edilib.

Nazir həmçinin qarşı tərəfə münaqişədən sonra bölgədə mövcud vəziyyət, üçtərəfli bəyanatların Azərbaycan tərəfindən icrası, azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, məcburi köçkünlərin onilliklər sonra öz torpaqlarına geri qayıtmaları üçün lazımi işlərin görülməsi ilə bağlı məlumat verib.



Nazar İsa Abdulhadi Al-Xeyrullah ikitərəfli münasibətlərin inkişafına verilən əhəmiyyəti qeyd edib. Mövcud siyasi dialoqun, o cümlədən xarici işlər nazirləri arasında təmasların intensivliyinin qorunub saxlanılmasının önəmini vurğulayıb. Söhbət zamanı məcburi köçkünlər, habelə dağıdılmış ərazilərin bərpası məsələsində İraqın təcrübəsinin olduğunu söyləyən nazir müavini bu təcrübəni Azərbaycanla bölüşməyə hazır olduqlarını bildirib. O, bölgədə həyata keçirilən bərpa işlər ilə əlaqədar, o cümlədən regionda gələcək sülh quruculuğu istiqamətində səylərinə görə Azərbaycanı təbrik edib.

Görüşdə nazir Ceyhun Bayramov Azərbaycan Respublikası və İraq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə səmimi təbriklərini ifadə edib və bu xüsusda iraqlı həmkarına ünvanlandığı məktubu çatdırması üçün nazir müavininə təqdim edib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, həmin gün Azərbaycan Respublikası və İraq Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. İclasda Azərbaycan tərəfindən nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, İraq tərəfindən isə xarici işlər nazirinin müavini Nazar İsa Abdulhadi Al-Xeyrullah başçılıq ediblər. Siyasi məsləhətləşmələr çərçivəsində əməkdaşlıq istiqamətləri üzrə bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.



Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

*Əvvəli 1-ci səh.*

# Tanrı köməyi



Dinsizliyi də özünə hədəf seçmişdi...

Həm də nəinki hədəf seçmişdi, Allaha inananları təqib edir, dini məbədlərə gedənləri cəzalandırır, ən yaxşı halda ahıl və pensiyaçılara güzəştə gedərək onları yalnız qınağa tuş gətirirdi.

❖ ❖ ❖

İndi də əsl səbəbi bilmək və söyləmək çətindir!

Fakt bu idi ki, 80-ci illərin sonlarında SSRİ adlı super dövlətin dağılması ərəfəsində Tanrı bizdən üz çevirdi!

Özü də yalnız üz çevirmədi, cəzalandırmağa başladı!

Bəlkə də hansısa "təzə" əməlimizə görə qəzəblənmişdi...

**Əvvəlcə 1990-cı ilin 20 Yanvar müsibətini başımıza gətirdi!**

**Bizi rəhbərsiz, böyüksüz qoydu!**

**Beləliklə, bir millət olaraq maymaqların, qorxaqların, təcrübəsiz və səriştəsizlərin ümidinə qaldıq!**

O dövrdə respublikaya başçılıq edənlərin bir gözü və iki qulağı Moskvada idi!

Nə dünyada, nə SSRİ miqyasında baş verən təlatümlü hadisələrdən baş çıxarır, sabah nə olacağını təsəvvür edir, nə də müvafiq, müstəqil addımlar atırdılar!

*Xalqa gün ağlamaq, torpaqların müdafiəsini təşkil etmək, ordu yaratmaq barədə düşünmək əvəzinə əhalidəki ov tüfənglərini belə yığaraq insanları əliyalın qoydular!*

*Özlərini demokrat sayan "meydan qəhrəmanları" isə neçə yaşayış məntəqəsinin itirilməsi bahasına iqtidara gələndən sonra ciblərini düşündüklərindən, gülünc, səriştəsiz siyasət (əgər buna siyasət demək mümkün idisə) yeritdiklərindən vəziyyəti daha da pisləşdirdilər, Azərbaycanı bir dövlət kimi məhvolma həddinə çatdırdılar.*

❖ ❖ ❖

... Torpaqlar kəndbəkənd işğal olunur, təkcə Vətəni müdafiəyə qalxan qeyrətli oğullar deyil, vəhşi və alçaq düşmənin qeyri-insani əməlləri nəticəsində qocalar, qadınlar, körpə uşaqlar belə öldürülür, düzlərə düşərək yurdsuz-yuvasız, ac-yalavac qalırdılar.

**Zülm ərşə dirənsə də, bunu nə Avropa, nə dünya görür, nə erməniyə dur deyən tapılırdı!**

**Əksinə, yanan da biz idik, yaman da!**

Adımızı "vəhşi", "qəddar" müsəlman qoyaraq bizi "zavallı", "mədəni və qədim" erməniyə qırdırır, torpaqlarımızın işğalına, soyqırımı və qəddarlıq hallarına göz yumurdular!

*Tanrı da bütün bunları görə-görə səbir edirdi!*

*Sanki bizə nə səbəbdənsə verdiyi cəzanın müddətinin bitməsini gözləyirdi...*

**1993-cü ildə deyəsən ürəyi bir qədər yumşaldı...**

**Sanki bu dövr üçün qoruyub saxladığı, Kremlin xəstəxanasından salamat qurtardığı övladını, əslində, Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevi yenidən geriyə, ölkə rəhbərliyinə qaytardı...**

**Bununla da Azərbaycanı bir dövlət kimi məhvolmadan, kiçik xanlıqlara bölünmədən qurtardı.**

Amma həmin dövrdə Ulu Öndərimiz üçün də asan deyildi!

Yoxsul, başıpozuq bir ölkədə vəziyyəti nizama salmaq xeyli müşkül görünürdü!

Bundan sonra da Tanrı bizi daha iki dəfə - 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında ağır sınağa çəkdi!

**Yalnız Heydər Əliyevin şəxsi şücaəti, müdrikliyi, qətiyyət və qorxmazlığı sayəsində dövlət çevrilişi cəhdlərinin qarşısı ustalıqla alındı, bu dəfə xalq öz rəhbəri ilə birlikdə olduğundan sınaqdan üzüağ çıxdı!**

**Deyəsən Tanrı da yavaş-yavaş mərhəmətini göstərməyə başlayırdı...**

Ulu Öndərimiz zaman itirmədən bir neçə istiqamətdə fəaliyyət göstərir, sutkanın on səkkiz saatını işləyirdi!

BELƏLİKLƏ:

- müharibə cəbhəsində atəşkəsə nail olundu;
- əhalidəki külli miqdarda qanunsuz silah-sursat yığıldı;
- ölkə anarxiya, xaos, qanunsuzluq və başıpozuqluqdan qurtardı;
- qaçqın və məcburi köçkünlər yerləşdirildi, onlara sistemli dövlət qayğısı və yardımı yoluna qoyuldu;
- yeni Konstitusiya hazırlanaraq qəbul olundu, bazar iqtisadiyyatı prinsiplərinə keçidə başlandı;
- özəlləşdirmə proqramları icra edildi, dövlət əmlakının dövlətsizləşdirilməsi prosesinə start verildi;
- torpaq islahatı keçirildi;
- ordu quruculuğu prosesi nizama salındı;
- "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, sürətli və davamlı iqtisadi inkişafın təməli qoyuldu və s.

*Ancaq ömür Ulu Öndərimizə vəfa etmədi!*

*Ümummilli Liderimiz Heydər Əliyev Qarabağın işğaldan azad edilməsini və digər taleyüklü problemlərin həllini cənab İlham Əliyevin üzərinə qoyaraq Azərbaycan xalqına sonuncu müqəddəs vəsiyyətini söyləyib əbədiliyə qovuşdu...*

**Xoşbəxtlikdən İlham Əliyevin güclü çiyinləri bu ağır və məsuliyyətli yükə tab gətirdi və bütün vəzifələri şərəflə, hünər və qəhrəmanlıqla yerinə yetirdi!**

**Görünür Tanrımız da budəfəki xilaskarlıq missiyasının icrasını İlham Əliyevin taleyinə yazıbmış və sonadək arxasında duraraq möcüzələr yaratmasında köməyi və dayağı oldu!**





❖ ❖ ❖

**Bəli, Allah-Təala Azərbaycan xalqına köməyini məhz özünün seçdiyi sevimli bəndəsi İlham Əliyevin əli ilə etdi!**

*Bundan sonra özü də üzünü xalqımıza doğru çevirdi, Prezidentimizə dayaq durdu, sözünü kəsərli, gücünü tükənməz, işini avand etdi!*

**Allah sevdiyi bəndəsinə həmişə lütf göstərir!**

- Baxın, cənab İlham Əliyevə iki dəfə Həcc ziyarəti, Kəbədə namaz qılmaq səadəti nəsib olub!
- Azərbaycan tarixində İlham Əliyev qədər məscid, kilsə, sinaqoq tikdirən ikinci bir dövlət başçısı olmayıb!
- İlham Əliyev ölkə ərazisində uzun müddət baxımsız qalan, bərbad günə düşən məscidləri, bir sıra dini ocaqları və türbələri yüksək səviyyədə təmir etdirərək xalqın sərəncamına verib;
- Neçə alban kilsəsi məhz onun sayəsində abadlaşdırılaraq qapılarını inanclı insanların üzünə açıb;
- Heydər Əliyev Fondunun dəstəyi ilə valideynlərindən məhrum uşaqlar üçün uşaq evləri, internat məktəbləri inşa olunub, müstəqil həyata qədəm qoyan kimsəsiz yeniyetmələrə və gənclərə təhsil, mənzil, iş verilib;
- Fiziki qüsurlu və müxtəlif xəstəliklərə mübtəla uşaqların müalicəsi, aktiv həyata inteqrasiyası üçün müalicə müəssisələri, bərpa mərkəzləri yaradılıb;
- Bu gün isə erməni vandallığı nəticəsində dağıdılmış, təhqir olunmuş məscid və digər məbədlərin bərpası ilə bağlı dəyərli layihələr gerçəkləşdirilir və onların ilk nümunələrini artıq mədəniyyət paytaxtı Şuşada görürük!

**Tanrı İlham Əliyevə daim arxa durur, kömək edir, gücünə güc qatır!**

*Bəs Qarabağımızın xilaskarı İlham Əliyevin real gücü nədədir?*

- İlk növbədə xalq-iqtidar birliyində, ölkə daxilində milli birliyin yaradılmasındadır!
- İlham Əliyev xalqın nə istədiyini bilir və daim onu uğurla gerçəkləşdirməyi bacarır!
- Yüksək intellektə, zəngin və hərtərəfli biliyə, xarizmaya malik unikal şəxsiyyətdir!
- Nəyi nə vaxt və necə etməyi gözəl bilir, ən məsuliyyətli addımlarını ən dəqiq məqamda atır!
- Fenomenal yaddaşa, parlaq nitq qabiliyyətinə, yüksək polemika bacarığına sahibdir!
- Uzaqgörənliyi, dünya siyasətinin incəliklərinə dərindən bələdliyi, diplomatik məharəti hamı tərəfindən etiraf olunur!
- Dostluq münasibətləri qurmağın, dövlətləri birgə əməkdaşlığa cəlb etməyin, bütün tərəfləri razı salan, hər kəsin marağını təmin edən işbirliyi yaratmağın ustasıdır!
- Dönməz iradəsi, açıq və səmimi davranışı, qətiyyət və prinsipiallığı bütün dünyaya bəllidir.
- Hamı cənab İlham Əliyevin dediyi sözün, verdiyi vədin yiyəsi olmasına, "sözümüz imzamızdır" prinsipinə daim əməl etməsinə şahiddir.
- Müasir düşüncə sahibi olaraq cari fəaliyyətini uzaq perspektivli məsələlərin həlli ilə üzvi surətdə əlaqələndirməyi ustalıqla bacarır.
- Böyük fiziki gücə, yüksək və gərgin iş qabiliyyətinə malikdir.
- Bir sözlə, Tanrı Qarabağın xilaskarı kimi seçdiyi İlham Əliyevdən heç nəyini əsirgəməyib!

*Daha maraqlı bir fakt.*

Cənab İlham Əliyev ölkə rəhbərliyinə başladığı dövrdə hətta ölkənin bütün ərazisinə sutkanın 24 saatı ərzində elektrik enerjisi verilməsi belə mümkün deyildi, xaricdən təbii qaz alırdıq...

Bu gün isə Azərbaycan dünyaya təkcə neft, neft məhsulları və təbii qaz deyil, həm də elektrik enerjisi ixrac edir və ilbəil onun həcmini artırır.

Yaxud, "Əsrin müqaviləsi" sayəsində ölkəyə neft gəlirləri gəlməyə başlayanda Tanrının köməyi ilə dünya neft bazarlarında xam neftin qiyməti sürətlə artmağa başladı.

Bu gün - Qarabağın dirçəldilməsinə başladığımız zamanda da neftin və qazın qiyməti yüksəlir!

Bunlar Tanrının lütfü deyilmi?!

❖ ❖ ❖

Dəyişən möhtəşəm reallıq dövlətimizin də gücünə güc qatıb!

Vaxt var idi dünya və Avropa qurumlarında ermənipərəst qüvvələrin köməyi ilə Azərbaycana böhtanlar atılır, sıxışdırılır, müxtəlif təsir və təzyiqlər göstərilirdi.

Adətən, belə hallarda özümüzü müdafiə edir, əsl həqiqətləri söyləməyə çalışır, bizə qarşı yönəldilən faktların yalanlığını isbat etməyə can atırdıq.

Bu gün təkcə bunları etmirik!

*Bizə şər və böhtan atıb borclu çıxarmağa çalışanları dedikləri ilə bağlı öz ölkələrində baş verənləri tarixi ardıcıllıqla yadlarına salır, öz əməllərini, naqis işlərini sübutlarla açıb tökür, öz gözlərindəki tiri də görməyə çağırırıq!*

*Daim hücum mövqeyindəyik!*

**Çünki müharibə meydanında qazandığımız qələbə, diplomatiya və informasiya cəbhəsindəki uğurlarımız mövqelərimizi əsaslı şəkildə gücləndirib, beynəlxalq qurum və təşkilatlarda fəaliyyətimizin səmərəliliyinin yüksəlməsinə münbit şərait yaradıb!**

Daha barəmizdə kimsə, haradasa, nəsə deyəndə bir o qədər də narahat olmuruq.

MƏSƏLƏN:

- ATƏT-in Minsk qrupunu xortlatmaq istəyənlər var;
- Ermənistanda və onun havadarları sırasında arabir "status" deyib sayıqlayanlar olur;
- ABŞ-ın Ermənistandakı səfiri hərdən vəzifəsinə və səlahiyyətlərinə uyğun gəlməyən, amma erməniyə xoş gedən "söhbətlər" edir;
- Biabırçı məğlubiyyətə uğrayaraq kapitulyasiya aktına qol çəkən Ermənistanın xarici işlər naziri özünü unudaraq delimitasiya və demarkasiya proseslərinin başlanılmasını müəyyən "şərtlərlə" bağlamağa can atır və s.

**İlham Əliyev belə halda ironiya ilə gülümsəyir, "dəmir yumruğ"unu sıxır və təmkinlə, amma qətiyyətlə xəbərdarlıqlarını da edir!**

**Bu gün qalib Azərbaycan dövləti ağıryüklü karvana bənzəyir və inamla, dayanmadan məqsədə doğru irəliləyir!**

Artıq Azərbaycan öz sərhədlərinin haradan keçdiyini hamıdan yaxşı bilir və zəruri saydığı tədbirlərini də görür:

Məsələn, indiyədək azad edilmiş ərazilərdə 104 sərhəd - döyüş məntəqəsi yaradılaraq xidməti - döyüş fəaliyyətinə başlayıb!

Bərpa-quruculuq işləri də görünməmiş sürətlə aparılır:

Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, dağların altından tunellər qazılır, meşələr və yaşıllıqlar bərpa olunur, "ağıllı" kənd və şəhərlərə çevriləcək layihələrin icrasına start verilir, bir sözlə, insanların doğma yurda tezliklə qayıtmaları üçün zəruri infrastruktur və şərait yaradılır!

*İlk qayıdış isə bax elə bu il baş tutacaqdır!*

Qaldı "status"a, o hələ də Prezidentimizin "göndərdiyi yerdə" düşüb qalıb...

**Bütün bu nəhəng və genişmiqyaslı işlərin təşkilatçısı və aparıcısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir!**

**İlham Əliyevin arxasında isə onu seçən və sevən, sevimli bəndəsinə çevirən Ulu Tanrı dayanır!**

**27 illik həsrət və möhnətdən sonra ilahi ədaləti bərpa edən, 44 günlük müharibədə bizə ən az itki ilə ən möhtəşəm Zəfər qismət edən Tanrımız!**

Belə söyləyirlər ki, Allah-Təala iki kərə gülümsəyir:

Birinci dəfə özü kimisə qaldıranda bəzilərinin onun ayaqlarından tutaraq mane olmaq cəhdlərini görəndə;

İkincidə isə kimisə yıxmaq istəyəndə bir sürü insanın onu yıxılmağa qoymamaq üçün az qala dəridən-qabıqdan çıxaraq tər tökdüklərini seyr edəndə!

**Tanrı bu gün qalib Azərbaycanı İlham Əliyevin qüdrətli əli ilə yüksəldir!**

*Ermənistanı isə yerləyeksan edir!*

**Azərbaycanı gülə-gülə ayağa qaldırır!**

*Məscidlərdə donuz saxlayan Ermənistanı isə yerlə süründürür və hələ bundan belə başına çox fəlakətlər də gətirəcəkdir!*

Tanrının arxa durduğu, kömək göstərdiyi insan möcüzələr yaratmağa qadir olur və yaradır!

Buna şahid olmaq istəyənlər hər zaman Azərbaycana gələrək Qarabağa, mədəniyyət paytaxtı Şuşaya səfər etməklə deyilənləri öz gözləri ilə görə bilərlər!

Tanrı artıq öz üzünü Azərbaycan tərəfə çevirib və bütün köməyini edir!

**Bəxtiyar SADIQOV**

# Naxçıvan muxtariyyətinin 98-ci ildönümünü böyük nailiyyətlərlə qarşılayır





Naxçıvanın Bakıdakı daimi nümayəndəliyində Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 98-ci ildönümünə həsr olunmuş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı "dəyirmi masa" keçirilib.

Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək, dahi Liderə və bütün şəhidlərimizə dərin hörmət və ehtiramlarını bildiriblər.

Tədbirdə çıxış edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və "Şərqin qapısı" adlandırılan Naxçıvanın keçdiyi mürəkkəb və çətin, eyni zamanda şərəfli tarixi inkişaf yolundan bəhs edib. Bildirib ki, bu gün biz Azərbaycanın ayrılmaz parçası olan bu gözəl diyarın muxtariyyət qazanmasının 98-ci ildönümünü böyük qürur və iftixar hissi ilə qeyd edirik. Tarixboyu Naxçıvan Azərbaycan dövlətçiliyinin sütunu, əsas mərkəzlərindən biri olub. Əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun üstündə yerləşməsi Naxçıvanı daim fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirib. Ərazisi dəfələrlə işğal olunsa da, əldən-ələ keçsə də, Naxçıvan heç vaxt qəddini əyməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə tarixi ərazisini qoruyub saxlaya bilib, müasir dövrümüzədək gətirib çıxarıb. Burada qədim, milli dövlətçilik ənənəsinin çoxəsrlik tarixi vardır.

"Naxçıvanın muxtariyyəti çətin sınaqlardan keçərək gərgin hərbi-siyasi və diplomatik mübarizələr nəticəsində qazanılıb", - deyən daimi nümayəndəliyin rəhbəri qeyd edib ki, 98 illik tarixə malik Naxçıvan Muxtar Respublikası son 30 ildə inkarolunmaz böyük tarixi inkişaf yolu keçib. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri, Naxçıvan Muxtar Respublikasının yaradılmasının yubileylərində proqram xarakterli çıxışları, bu diyarda son illərdə görülən işlər, həyata keçirilən quruculuq tədbirləri Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurla, ləyaqətlə davam etdirilməsinin nəticəsidir. Ardıcıl, düşünülmüş, uzaqgörən siyasətin nəticəsində bu gün Naxçıvan tarixində görünməmiş inkişaf dövrünü yaşayır.

Vətən müharibəsinin bitməsi ilə əlaqədar 2020-ci il noyabr ayının 10-da imzalanan üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunur. Yaradılacaq Zəngəzur dəhlizindən sonra təkcə bizim üçün deyil, region dövlətlərinin istifadəsi üçün də böyük imkanlar açılacaq. Bu eyni zamanda sülhün və əmin-amanlığın bərqərar olunmasına əsaslı zəmin yaradacaq. Ən əsası isə Azərbaycanın qardaş Türkiyə Cümhuriyyəti ilə birbaşa əlaqəsi bərpa olunacaq.

Bütün sahələri əhatə edən quruculuq, abadlıq işləri sayəsində müasirliklə qədimliyin vəhdətində böyüyən, böyüdükcə gözəlləşən Naxçıvan öz intibah dövrünü yaşayır. Muxtar respublika inkişaf etmiş ölkələrlə, Naxçıvan şəhəri isə Avropa şəhərləri ilə müqayisə oluna biləcək səviyyədə modernləşib. Tarixi abidələri, müalicəvi əhəmiyyətli suları, buz bulaqları, meşələri, təmiz havası ilə turistləri, qonaqları valeh edən muxtar respublikanın füsunkarlığı göz oxşayır. Türkdilli dövlətlərin dövlət başçılarının IX Zirvə görüşünün muxtar respublikada keçirilməsi, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan olunması müasir tariximizdə dünya sivilizasiyasına önəmli töhfələr verib. Görülən işlərin nəticəsidir ki, Naxçıvan beynəlxalq elm, mədəniyyət və idman tədbirlərinə evsahibliyi edir və həmişə etməyə hazırdır, burada elmi konfrans və simpoziumlar, rəsm festivalları və s. keçirilir.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən məqsədyönlü, konseptual şəkildə davam etdirilməsi bu qədim diyarın simasını dəyişməklə əsaslı dərəcədə gözəlləşdirdi. Naxçıvan qurucu rəhbəri sayəsində sosial problemləri qısa zamanda geridə qoyaraq bütün bölgələri, sərhəd kəndlərini belə inanılmaz dərəcədə müasirləşdirdi. Qədimliyini, tarixiliyini qorumaqla müasirliyə doğru irəliləyən muxtar respublikanın paytaxtı kimi bütün rayon və kəndlərində həyata keçirilən sosial-iqtisadi islahatlar, inşa olunan obyektlər, təhsil, səhiyyə ocaqları əhaliyə tam gücü ilə xidmət edir. Rayon və kəndlər də daxil olmaqla həyata keçirilən infrastruktur layihələrinə, yol-nəqliyyat sahələrinə diqqətin artırılması, abadlıq və yenidənqurma işlərinin genişləndirilməsi istiqamətində görülən işlər insanların rahat yaşamasını təmin edir. Blokada şəraitində əldə olunan uğurlar Vətənə bağlılığın, torpağa sevginin real ifadəsidir. Dinamik sürətlə artan inkişaf muxtar respublika rəhbərliyinin səyi, insanlara diqqət və qayğısı sayəsində mümkün olmuşdur.

Sonra çıxış edən Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı akademik İsa Həbibbəyli, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Milli Məclisin deputatı Hikmət Babaoğlu Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusunun tarixi əhəmiyyətinin və Heydər Əliyevin bu statusun möhkəmləndirilməsindəki xidmətlərindən danışıblar. Həmçinin Prezident İlham Əliyevin müasir Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafındakı böyük xidmətlərindən, elm, mədəniyyət, incəsənət adamlarına göstərdiyi diqqət və qayğıdan, yaradılan şəraitdən bəhs ediblər.

Tədbir iştirakçıları daimi nümayəndəlikdə Naxçıvan Muxtar Respublikasının 98-ci ildönümünə həsr olunmuş kitab sərgisi ilə də tanış olublar.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Azərbaycanda həyata keçirilən sosial islahatlar beynəlxalq miqyasda təqdir edilir

Birləşmiş Millətlər Təşkilatının Sosial İnkişaf Komissiyasının 60-cı sessiyası çərçivəsində "Dayanıqlı ərzaq sistemlərinin təşviqi yolu ilə qida təhlükəsizliyi probleminin həlli və yoxsulluğun aradan qaldırılması vasitəsilə hamı üçün rifah və ləyaqətin təmin olunmasında çoxtərəfliliyin gücləndirilməsi" mövzusunda Nazirlər Forumu keçirilib.

Forumda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev əhalinin rifahının ardıcıl olaraq yaxşılaşdırılmasının Azərbaycanın sosial-iqtisadi siyasətinin əsas prioritetlərindən olduğunu vurğulayıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Sahil Babayev çıxışında bildirib ki, ölkəmizdə son 3 ildə illik maliyyə dəyəri 5 milyard manat (təqribən 3 milyard ABŞ dolları) olan 3 sosial islahat paketi həyata keçirilib, yalnız 2022-ci il üçün sosial islahatlar paketi 2,1 milyon insanı əhatə edir. Aparılan islahatlar nəticəsində həmin dövrdə sosial ödənişlər 65 faiz, minimum pensiya 2,2 dəfə, orta pensiya 60 faiz, minimum əməkhaqqı 2,3 dəfə, illik əməkhaqqı fondu 2 dəfədən çox artıb.

Nazir yoxsulluğa qarşı mübarizə tədbirlərindən biri olan ünvanlı dövlət sosial yardımı proqramını qeyd edib. Ötən il 202 min ailə üzvü olan 47 min aztəminatlı ailənin ünvanlı yardımla təmin edildiyini, bu yardımın orta aylıq məbləğinin son bir ildə 17 faiz artdığını, 2020-ci ildə COVID pandemiyası zamanı da ünvanlı yardım proqramının mühüm sosial dəstək rolu oynadığını vurğulayıb. Həmçinin keçən il ölkə əhalisinin təxminən 4,6 faizinin və ya 466 min nəfərin aylıq və birdəfəlik sosial müavinətlə təmin edildiyini, son 3 ildə ölkəmizdə orta aylıq pensiyanın 60 faiz artdığını qeyd edib.

BMT Əhali Fondu ilə birgə layihə çərçivəsində Azərbaycanda 2019-2021-ci illərdə Aktiv Yaşlanma İndeksinin hazırlandığını bildirən nazir əlilliyi olan şəxslərin sosial müdafiəsi və reabilitasiyası tədbirlərini də diqqətə çatdırıb.

S.Babayev 2020-ci ildə, 44 günlük Vətən müharibəsində Azərbaycanın BMT-nin 4 qətnaməsinin icrasına nail olduğunu, öz ərazilərini Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad edərək ərazi bütövlüyünü təmin etdiyini vurğulayaraq qeyd edib ki, bu müharibə və Ermənistanın əvvəllər işğalda saxladığı həmin ərazilər üzrə bütün və dəqiq mina xəritələrini vaxtında açıqlamaqdan qəti şəkildə imtina etməsi həm mülki şəxslər, həm də hərbi qulluqçular arasında əlilliyi olanların sayının artmasına səbəb olub.

Nazir Azərbaycanda əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatı, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, aktiv məşğulluq proqramları, gender bərabərliyi, məşğulluq üzrə xidmətlərin rəqəmsallaşdırılması sahəsində görülən işləri qeyd edib.

O, COVID-19 pandemiyası ilə əlaqədar 2020-ci ildə 4 istiqamət üzrə 12 sahəni əhatə edən məşğulluq və sosial dəstək tədbirlərindən bəhs edib. Əhalinin 48 faizinin və ya 4,8 milyon nəfərin həmin tədbirlərlə əhatə olunduğunu deyərək bildirib ki, ölkəmiz pandemiyanın yaratdığı sarsıntıları dəf edərək, 2021-ci ildə iqtisadiyyatın bərpası yoluna inamla qayıdıb. Ötən ilin sonuna real ümumdaxili məhsul 5,6 faiz artıb, işsizlik səviyyəsi 7,2 faizdən 6 faizə enib.

DOST konsepsiyası barədə məlumat verən S.Babayev nazirliyin 173 xidmətindən artıq 110-nun e-qaydada (o cümlədən 46 xidmətin proaktiv qaydada) həyata keçirildiyini, bu il daha 50 xidmətin rəqəmsallaşdırılması işlərinin aparıldığını, nazirlik üzrə xidmətlərin 90 faizinin elektronlaşdırılmasının hədəf olduğunu diqqətə çatdırıb.

Forumda Perunun vitse-prezidenti, inkişaf və sosial naziri Dina Boluarte, Finlandiyanın sosial işlər və səhiyyə naziri Hanna Sarkkinen, Qətər Dövlətinin sosial işlər və ailə naziri Mariam bint Əli bin Nasser Al-Misnad, Liberiyanın gender, uşaqlar və sosial müdafiə naziri Villiametta E. Saydee-Tarr, Monqolustanın əmək və sosial müdafiə naziri Ariunzaya Ayuş, Yaponiya parlamentinin xarici işlər nazirinin müavini Kentaro Uesugi və başqaları da çıxış ediblər.

# Böyük Zəfərin möhtəşəm yolları

## İlham Əliyevin Qarabağda və Şərqi Zəngəzurda təməlini qoyduğu modern yol infrastrukturları tezliklə istifadəyə veriləcək










***Əvvəli 1-ci səh.***

Tərtər rayonunun Talış, Goranboy rayonunun Tapqaraqoyunlu və Qaşaltı Qaraqoyunlu kəndlərini keçməklə Naftalan şəhərinə doğru uzanan yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək, həmçinin Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə rahat və təhlükəsiz hərəkəti təmin edəcək.

### Zəngəzur dəhlizinin bir parçası

Ötən il oktyabrın 26-da təməli qoyulan və Zəngəzur dəhlizinin bir parçası olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi də sürətlə davam edir. Uzunluğu 123,8 kilometr olan bu yol 4-6 hərəkət zolaqlı olacaq. Hazırda yolun tikintisi sürətlə aparılır və 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Son məlumatlara əsasən, avtomobil yolu üzrə texniki göstəricilər: uzunluğu 123,8 kilometr, I texniki dərəcəli, 4-6 hərəkət zolaqlıdır. Yolun 0-23, 35-76, 82-83, 94-95, 101-112-ci kilometr hissələrində torpaq yatağının tikintisi aparılır. Torpaq işləri 30 faiz, boru və keçidlərin tikintisi 29 faiz, körpülərin tikintisi 27 faiz icra olunub. Ümumi uzunluğu 6 kilometr təşkil edən 3 avtomobil tunelinin inşası işlərinə start verilib.

### Bərdə-Ağdam avtomobil yolunda tikinti işləri sürətlənir

İcra olunan yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun tikintisi də sürətlə davam etdirilir.

Başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 45 kilometr təşkil edəcək. Prezidentin tapşırığına əsasən, Bərdə-Ağdam avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda Bərdə-Ağdam avtomobil yolunun 5-45-ci kilometrlik hissəsində torpaq işlərinin icrası davam etdirilir. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılır, genişləndirmə işləri aparılmaqla 26,5 metr enində yeni yol yatağı inşa edilir. Yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi işləri aparılır və bəzi hissələrdə tikinti işləri yekunlaşmaq üzrədir.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə 79 dairəvi suötürücü boru, 5 düzbucaqlı su keçidi, həmçinin zəruri olan yerlərdə 5 yeraltı keçidin tikintisi davam etdirilir. Yolun 25 və 40-cı kilometrlik hissəsində inşa olunan 91,3 və 18,2 metr uzunluğa malik 1 aşırımlı körpülərin, həmçinin yolun 41-ci kilometrlik hissəsində 32,2 metrlik yol ötürücünün inşası da artıq yekunlaşmaq üzrədir. Bununla yanaşı, yolun 14-cü kilometrlik hissəsində 66 metr uzunluğa malik yeni yol qovşağının tikintisinə başlanılıb. Yolun 29-cu kilometrliyində "Pit stop" ("Dayan, dincəl") məntəqəsinin inşasına da start verilib. Birinci texniki dərəcəli avtomobil yolu boyunca hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə geriyə dönmə hissələrinin yaradılması, avtobus dayanacaqlarının inşası da həyata keçiriləcək.

Prezidentin 2021-ci il mayın 28-də təməlini qoyduğu Bərdə-Ağdam avtomobil yolu işğaldan azad edilmiş Ağdam şəhərinə qədər inşa edilir. Avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

### Füzulidən Ağdama olan 64,8 kilometrlik yolda torpaq işlərinin icrası aparılır

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri də 2021-ci il oktyabrın 17-də İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam-Füzuli avtomobil yoludur.

Hazırda yolun inşası prosesi davam edir.

Yolun tikintisi Prezident İlham Əliyevin 2021-ci ilin avqustunda imzaladığı Sərəncamla təsdiq olunmuş "İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi" çərçivəsində həyata keçirilir.

Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olacaq. Yol çiyinlərinin hər iki istiqamətdə 3,75 metr, ayırıcı zolağın eni 2 metr olmaqla yol yatağının eni 26,5 metr təşkil edəcək. Birinci texniki dərəcəli yolun layihə üzrə 380 metr istinad divarı inşa olunacaq.

Hazırda Ağdam-Füzuli avtomobil yolunda torpaq işlərinin icrası aparılır. Xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılır, genişləndirmə işləri aparılmaqla 26,5 metr enində yeni yol yatağının inşası istiqamətində addımlar atılır. Yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi, bərabər olaraq bəzi hissələrdə bitki qatının qazılaraq çıxarılması, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri görülür.

Yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə 60 suötürücü boru, 8 düzbucaqlı su keçidi, həmçinin zəruri olan yerlərdə 5 yeraltı keçidin və yol üzərində 3 yeni avtomobil körpüsünün tikintisi nəzərdə tutulub. Bundan başqa, yolboyu avtobus dayanacaqlarının və digər infrastrukturun inşası aparılacaq.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli ərazilərindən keçəcək. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə insanların rahat gedişgəlişini təmin edəcək.

### Kəlbəcərdə yollar qardan və buzdan təmizlənir

Hazırda yüksək dağlıq ərazilərdə qarın yağması yolların sürətlə inşasına maneələr yaradır. Xüsusən də Laçın və Kəlbəcər rayonları gözəl olduğu qədər çətin relyefdən, əsasən, dağlıq ərazilərdən ibarətdir. Buna baxmayaraq, həmin rayonlarda yolların tikinti prosesi davam etdirilir.

Xüsusən də Ömər aşırımından keçən respublika əhəmiyyətli Gəncə-Kəlbəcər-İstisu və Kəlbəcər-Laçın avtomobil yollarında, həmçinin yerli əhəmiyyətli digər yollarda hərəkətin təhlükəsizliyi və fasiləsizliyini təmin etmək üçün yolların qardan və buzdan təmizlənməsi istiqamətində bir an belə fasilə olmadan işlər aparılır. Yüzlərlə kilometr uzunluğa malik olan yolların qardan və buzdan təmizlənməsi işlərini tənzimləmək məqsədi ilə Kəlbəcər rayonunda qərargah və 21 istiqamətdə dayaq məntəqələri yaradılıb. Qərargah və dayaq məntəqələri sərt iqlimə uyğun şəkildə lazımi avadanlıqlarla təchiz edilib, ərzaq, yanacaq-sürtkü, duz-qum ehtiyatları ilə təmin olunub.

Qarın kürənməsi, yolların qar uçqunundan təmizlənməsi işlərinin aparılması üçün əraziyə 100-ə yaxın maşın-mexanizm və texnika təhkim olunub, xidməti qrup yaradılıb. Xidməti qrupun tərkibində çalışan çilingərlər, mexaniklər tərəfindən təmirə ehtiyacı olan maşın-mexanizmlərə texniki servis işləri yerindəcə aparılır, rezin təkərli mexanizmlər zəncirlərlə təmin edilir. Maşın-mexanizm və texnikaların, həmçinin xidməti sahələr və yaşayış düşərgələrində olan işıq generatorlarının fasiləsiz çalışması üçün ərazilərə yanacaq daşıyan maşınlar təhkim edilib.

Artıq əksər yolların tikinti prosesinin böyük hissəsi yekunlaşıb. Əminliklə deyə bilərik ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan birnömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Görülən işlər onu deməyə əsas verir ki, tezliklə dünya bir daha Azərbaycanın qüdrətinə şahidlik edəcəkdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Amerika Ticarət Palatası ilə əlaqələrin genişləndirilməsi ümumi işə fayda verəcək

Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) prezidenti Nuran Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə DGK-nın sədri Səfər Mehdiyev Azərbaycanda Amerika Ticarət Palatası və gömrük orqanları arasında əməkdaşlıqdan, səmərəli və işgüzar münasibətlərdən məmnunluqla bəhs edib. Vurğulanıb ki, komitə ilə palata üzvləri arasında mütəmadi şəkildə keçirilən görüşlər gömrük-biznes əlaqələrinin, eyni zamanda gömrük işinin təşkilinin inkişafına mühüm töhfə verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü islahatların gömrük işinin də çevik, səmərəli və şəffaf şəkildə qurulmasına münbit şərait yaratdığını bildirən komitə sədri tətbiq edilən yeniliklər hesabına istər fiskal sahədə, istər hüquqpozmalarla mübarizədə, istərsə də gömrük əməliyyatlarının sadələşdirilməsi və sərhədkeçmə proseslərinin sürətləndirilməsi istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb.

Komitə sədri xarici ticarət iştirakçıları ilə müxtəlif platformalarda səmərəli əməkdaşlığın qurulduğunu, o cümlədən Azərbaycanda Amerika Ticarət Palatası ilə mövcud əlaqələrin daha da dərinləşdirilməsinin ümumi işə fayda verəcəyini deyib.

Azərbaycanda Amerika Ticarət Palatasının prezidenti Nuran Kərimov gömrük sistemində həyata keçirilən islahatları yüksək qiymətləndirib və tətbiq edilən yeniliklərin xarici ticarət iştirakçılarına mühüm fayda verdiyini vurğulayıb.

Nuran Kərimov Azərbaycan Gömrük Xidməti ilə əməkdaşlığa çox böyük önəm verdiklərini deyib, əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyətindən danışıb.

Sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Səfər Mehdiyev Nuran Kərimova gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalını təqdim edib.

## Ötən il Bakı limanında qeydə alınan nəticələr müsbət qiymətləndirilir

Bakı limanının Bərə terminalında vaqon aşırılmasında 18,7 faiz azalma müşahidə edilib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən AZƏRTAC-a bildirilib ki, ötən il Bakı limanı vasitəsilə daşınan vaqonların sayı 30 min 426 ədəd olub ki, bu vaqonlardan da 20 min 867 ədədi Bakı-Türkmənbaşı-Bakı (68,6 faiz), 9559 vaqon isə Bakı-Kurık/Aktau-Bakı (31,4 faiz) istiqamətində hərəkət edib. Qeyd olunmalıdır ki, 2020-ci illə müqayisədə ötən il iritonnajlı (TIR) nəqliyyat vasitələrinin daşınmasında azalma müşahidə edilsə də, 2019-cu illə müqayisədə 17 faizlik artım qeydə alınıb.

Yuxarıda qeyd edilən sahələr üzrə faiz göstəricilərində müəyyən azalma qeydə alınsa da, ümumi yükaşırmanın həcmində müsbət tendensiya davam edib.

Ümumilikdə 2021-ci ildə Bakı limanında qeydə alınan nəticələr müsbət qiymətləndirilir, ötən il üçün əvvəlcədən müəyyənləşdirilən proqnoz 104 faiz həcmində icra olunub. Bakı limanının yükaşırma həcminin artması bilavasitə Azərbaycanın qeyri-neft sektoru üzrə ümumi daxili məhsulunun artması kimi səciyyələndirilir və Azərbaycanın regionda trans-logistika mərkəzi kimi mövqeyini möhkəmləndirir.

# Prezidentin yeni sərəncamından 1,1 milyon pensiyaçı yararlanacaq

**Prezident İlham Əliyev tərəfindən "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 2022-ci il 8 fevral tarixli sərəncamı həssas kateqoriyadan olan vətəndaşlara diqqətin daha bir təzahürüdür.**



Bu sənədin imzalanmasında məqsəd COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı qiymət artımlarının ölkədaxili inflyasiyaya və əmək pensiyaçılarının sosial rifahına təsirlərin yumşaldılmasına xidmət edir.

İmzalanan yeni sərəncamla cari il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi 2021-ci il üzrə orta aylıq nominal əməkhaqqının artım tempinə uyğun indeksləşdirilərək bu il yanvarın 1-dən artırılacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birlikdə veriləcək.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, ötən il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempi 3,4 faiz olub. Dövlət pensiyaçılara ilk dəfə daha bir güzəşt də edir. Belə ki, bu artımla bərabər, sərəncama əsasən, sığorta prinsipi ilə pensiya alanlara cari il üzrə 200 manat məbləğində maddi yardım da göstərilir. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək. Bu həftə ərzində pensiyaların yeni artımla birgə ödənişlərin verilməsinə başlanılacaq.

Hamını maraqlandıran "pensiya neçə faiz artıb" sualına aydınlıq gətirilib. Artımlar ölkə üzrə pensiyaçıların orta aylıq məbləğinə münasibətdə 9 faiz artacaq. Lakin 300 manatadək pensiya alan şəxslərdə bu artım 10, daha yüksək məbləğdə pensiya alanlarda isə 7-8 faizədək olacaq. Həmin sərəncamla müəyyən edilən indeksasiya və maddi yardım keçən il üzrə artan inflyasiya dərəcəsi olan 6,7 faizi üstələyir ki, bu da pensiyaçılara dövlət dəstəyinin növbəti nümunəsidir.

Yeni sərəncamın əhatə dairəsi genişdir. Belə ki, pensiyaların 2022-ci ilin əvvəlindən indeksləşdirilərək artırılması və maddi yardım verilməsi pensiyaçıların 92 faizini və ya 1,1 milyon nəfəri əhatə edəcək. Bu da həmin məqsədlər üçün il ərzində əlavə olaraq 352 milyon manatın xərclənməsi deməkdir. Qeyd edək ki, verilən maddi yardımın 2023-cü ilin əvvəlindən pensiyaçıların illik pensiyalarının tərkibinə daxil edilməsi nəzərdə tutulub. Bununla bağlı müvafiq qanunvericilik aktları qısa müddətdə ölkə Prezidentinə təqdim olunacaq.

Sərəncamla həmçinin istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq sığorta olunanların fərdi hesablarının sığorta hissəsindəki pensiya kapitalları da 6,7 faiz indeksləşdirilməklə artırılır. Bu da əmək müqaviləsi əsasında işləyən şəxslərin fərdi hesabındakı pensiya kapitalının təkcə hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları ilə deyil, həmçinin hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir.

Bu sərəncamla xüsusi qaydada pensiya alan vətəndaşlar da diqqətdən kənar qalmayıb. Belə ki, yeni sərəncam qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxsləri də əhatə edir. Dövlət başçısı tərəfindən Nazirlər Kabinetinə bu kateqoriyadan olan pensiyaçıların pensiyalarının indeksləşdirməklə artırılması, habelə 2022-ci il üzrə maddi dəstəyin göstərilməsinə dair təkliflərin 1 ay müddətində təqdim edilməsi tapşırılıb.

Qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxslərin sayı 99 min nəfərdir. Bunlar əsasən pensiyaya çıxmış hərbçilər, hüquqmühafizə orqanlarının əməkdaşları, dövlət qulluqçularıdır. Mövcud qanunvericiliyə əsasən, bu kateqoriyadan olan pensiyaçıların sığorta prinsipindən kənar formalaşdığına görə illik indeksasiyalar, onların pensiyalarının ümumi məbləğinə şamil olunmur. Bu üzdən yeni sərəncamla həmin şəxslərə də 2022-ci ildə dövlət dəstəyinin məbləğinin hər il artırılmasına imkan yaradacaq.

Dövlətin öz vətəndaşlarının rifahına yönəldiyi tədbirlər davamlıdır. Xatırladaq ki, Prezident İlham Əliyev 2021-ci il oktyabrın 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalamışdır. Məqsəd indiki şəraitdə vətəndaş rifahının təmin edilməsi və əhalinin risk qrupuna daxil olan nümayəndələrinin sosial müdafiəsini gücləndirməkdir. Xüsusilə vurğulamaq lazımdır ki, dövlət başçısının bu sərəncamı cəmiyyətin sosial cəhətdən həssas olan bütün təbəqələrini əhatə edir. Yəni ehtiyacı olan hər bir vətəndaşın sərəncam çərçivəsində həyata keçirilən tədbirlərdən faydalanmaq imkanı var.

Dövlət başçısının cari ilin əvvəlindən bəri bu qəbildən olan sərəncam və fərmanları da vətəndaşlara məhz bu imkanı yaradır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## İqtisadi sektorda çalışanların sayı 1,7 milyon nəfəri üstələyib

Cari il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən, ötən illə müqayisədə 6,4 min nəfər və ya 0,4 faiz artaraq 1705,1 min nəfər olmuşdur.

Onlardan 904,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 800,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 19,6 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,3 faizi tikinti, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,9 faizi maliyyə və sığorta fəaliyyəti, 13,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2021-ci ilin ilkin məlumatlarına əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 732,1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Polimer istehsalı 44 faiz artıb

Ötən il "SOCAR Polymer" müəssisəsi ixrac həcmi ilə yanaşı, istehsal göstəricilərini də yüksəldib.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, polimer məhsul istehsalı 2020-ci ildə 142,57 min ton təşkil etmişdirsə, ötən il bu rəqəm 205,2 min tona yüksəlib. Bu da 44 faiz artım deməkdir.

Qeyd edək ki, pandemiya dövründə "SOCAR Polymer" qoruyucu maskaların istehsalında istifadə olunan polimer məhsulunun istehsalına da başlayıb.

## Şamaxıda inşa olunacaq tikililərin yeni memarlıq üslubu müəyyənləşib

**Turizm potensialı yüksək olan Şamaxıda son illər tikinti-quruculuq işləri geniş vüsət alıb.**

Müasir şəhərsalma standartlarına uyğun görülən işlər nəinki yerli sakinlər, qonaqlar tərəfindən də maraqla qarşılanır. Təəssüf ki, bu gün Şamaxıda şəhərin görünüşünə xələl gətirən, milli memarlıq üslubuna və müasir tikinti normalarına uyğun olmayan tikililərə də rast gəlinir. Hazırda rayon icra hakimiyyəti aidiyyəti qurumlarla bu cür qanunsuz tikililərin qarşısının alınması istiqamətində tədbirlərə başlayıb.

Bu barədə icra hakimiyyətindən AZƏRTAC-a bildirilir ki, Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsi və Dövlət Turizm Agentliyi ilə birgə Şamaxıda inşa olunacaq fərdi evlərin, ticarət, xidmət və digər obyektlərin yeni memarlıq üslubu müəyyən edilib. Bununla əlaqədar vətəndaşlar təmir-tikinti işlərinin müəyyən olunan müvafiq memarlıq üslubunda aparılması barədə məlumatlandırılıblar. Hər hansı tikinti işlərinə başlamazdan əvvəl layihə mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq icra hakimiyyətinin tikinti və memarlıq şöbəsi ilə razılaşdırılmalı, Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin tələbləri ilə müəyyən olunan müvafiq rəsmiləşdirmə işləri aparıldıqdan sonra həyata keçirilməlidir.

Qanunsuz tikililərin həyata keçirilməsi halları baş verdikdə istər vətəndaşlar, istərsə də bu işlərə himayədarlıq edən vəzifəli şəxslərlə bağlı qanunamüvafiq qaydada ciddi tədbirlər görüləcək.

## Azərbaycanda enerji sistemlərinin yenidən qurulması davam edir



**Azərbaycanın istənilən bölgəsində enerji sistemləri sahəsində aparılan islahatları nəzərdən keçirəndə müasir sistemlərin tətbiqinin şahidi oluruq.**

Yenidən qurulan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışı bunu sübut edən çoxsaylı faktlardan sonuncusudur.

Rusiya-Azərbaycan enerji sistemlərini əlaqələndirən bu yarımstansiya dövlətlərarası qovşaq yarımstansiyası funksiyasını daşıyır və Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə tikilmişdir. Yarım əsr bundan öncə inşa edilən bu yarımstansiyada müxtəlif tipli qəzaların baş verməsi, istehsal prosesində çətinliklərin yaranması başadüşülən idi. Dənizə yaxın, nəmişlik ərazidə yerləşdiyi üçün 50 ildən yuxarı zaman kəsiyində dəmir-beton və metal-konstruksiyaların aşınması uzunmüddətli istismardan köhnələn avadanlıqlarda tez-tez qısaqapanmaların artmasına və sistem qəzalarının başvermə ehtimallarının yüksəlməsinə səbəb olurdu. Son nəticədə tələbatın artması da ciddi müdaxilə tələb edirdi. Prezident İlham Əliyevin tapşırığı ilə bu yarımstansiyanın rəqəmsal qaydada tam yenidən qurulması onun fəaliyyətində ciddi dönüş yaratmağa imkan verdi. Eyni zamanda bu işlər elə mükəmməlliklə aparıldı ki, yarımstansiyanın fəaliyyətində fasilə yaranmadı.

Digər tərəfdən, yeniliyin diqqətçəkən amillərindən ən vacibi odur ki, "Sumqayıt", "Qobu", "Xaçmaz" elektrik stansiyaları ilə birbaşa, "Azərbaycan" İstilik Elektrik Stansiyası və "Cənub" Elektrik Stansiyası ilə "Abşeron" yarımstansiyası vasitəsilə əlaqələndirilən "Yaşma" qovşaq yarımstansiyası çox mühüm strateji funksiyanı üzərinə götürmüşdür. Beləliklə, bu qovşaq yarımstasiyasının "Qobu" Enerji Qovşağına, bu ilin yanvarında əsası qoyulan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası və tikintisinə başlanılacaq yeni "Yaşma" Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyasının həyata keçirilməsi üçün yeni yuvalar quraşdırılmışdır. Şimal-şərq rayonlarının və Abşeron yarımadasının enerji təchizatında müstəsna əhəmiyyət kəsb edən "Yaşma" yarımstansiyasında, həmçinin 330, 220 və 110 kilovoltluq açıq paylayıcı qurğular sökülərək genişləndirilmiş formada yenidən qurulmuşdur. İndi bu yarımstansiyanın ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılmış, "Qobu" Elektrik Stansiyasından "Yaşma" yarımstansiyasına 47 kilometr uzunluğunda 330 kilovoltluq ötürmə xətti çəkilmişdir.

Prezident İlham Əliyevin "Yaşma"nın açılış mərasimində iştirak etməsi və yarımstansiyanı işə salması bu obyektin önəminə bir daha diqqət çəkir.

Qeyd etmək etmək lazımdır ki, əsaslı təmir işləri bu yarımstansiyanın fəaliyyətində bir neçə vacib yeniliklərin tətbiq edilməsinə imkan yaratmışdır. Ölkənin enerji sistemində ilk dəfə burada respublikanın şimal-şərq rayonlarının və Abşeron yarımadasının reaktiv gücünü kompensasiya edə biləcək şuntlayıcı reaktor quraşdırılmışdır. Bu reaktor xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər, texniki itkiləri azaldacaq. Bu da öz növbəsində yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etməyə imkan verəcək. Onu da diqqətə çatdırmaq vacibdir ki, Bakı-Quba magistral yolundan yarımstansiyaya qədər dörd kilometr məsafədə yol təmir edilmiş, bir kilometrlik yeni yol çəkilmiş və daxili yollar salınmışdır.

"Yaşma" yarımstansiyasının əsaslı surətdə yenidən qurulması onun yükötürmə qabiliyyətinin artırılmasına, dövlətlərarası və ölkədaxili elektrik təchizatının etibarlılığının və dayanıqlılığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir texnologiyaların tətbiqinə nail olmağa imkan vermişdir. Ən müasir idarəetmə, rele mühafizəsi və avtomatika dövrələrinin quraşdırılması avadanlıqların imtinası və zədələnməsinin qarşısını alacaq. Mühafizələrin etibarlı işi və operativ əməliyyatların çevikliyi təmin ediləcək.

Qeyd edək ki, ölkənin enerji sistemində aparılan islahatlar yalnız bir bölgəyə, bir istiqamətə bağlı deyil və şəbəkələnmiş qaydada bütün enerji sistemlərini əhatə edir. Bu sırada işğaldan azad edilmiş ərazilərdə enerji sistemlərinin bərpasına və yenidən qurulmasına da xüsusi məsuliyyət hissi ilə yanaşıldığını etiraf etmək lazımdır. Ötən ilin sonuna kimi Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılmışdır. Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem konsepsiyası reallaşdırılmış, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar formalaşdırılmışdır.

Faktiki olaraq biz onun şahidiyik ki, Prezident İlham Əliyev ölkənin enerji sistemlərinin yenidən qurulmasını düşünülmüş və mükəmməl proqramla reallaşdırmaqdadır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Zaqatalada KOB dostu fəaliyyətə başlayıb

Artıq Zaqatala rayonundan olan sahibkarlar və biznesə başlamaq istəyənlər dəstək və xidmətlər üçün KOB dostuna müraciət edə bilərlər.

Fəaliyyətə başlayan Zaqatala KOB dostu Şəki-Zaqatala iqtisadi rayonu üzrə sayca 3-cüdür. Ümumilikdə isə, hazırda KOB dostu şəbəkəsi ölkənin 28 şəhər və rayonunu əhatə edir.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Zaqatala Rayon İcra Hakimiyyətinin, sahibkarların və onlara xidmət göstərən müvafiq qurumların nümayəndələrinin iştirakı ilə KOB dostu rayonun biznes ictimaiyyətinə təqdim edilib.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov agentliyin fəaliyyət istiqamətləri və KOB dostu mexanizmi barədə məlumat verib. Qeyd olunub ki, KOB dostu rayonda yeni sahibkarlıq subyektlərinin yaranmasına, mövcud KOB-ların inkişafına dövlət dəstəyini, o cümlədən KOBİA-nın xidmətlərini yerində təmin edəcək. Həmçinin KOB dostu sahibkarların maraqlarının müdafiəsi və onların qarşılaşdıqları çətinliklərin həllinə, investisiya təşəbbüslərinin reallaşdırılmasına və maarifləndirilməsinə dəstək göstərəcək, biznes subyektlərinin inkişaf ehtiyacını və təkliflərini sorğular vasitəsilə öyrənəcəkdir. KOB dostu həm də dövlət qurumları və sahibkar arasında körpü rolunu oynayacaq, lazım gəldikdə sahibkarlara səyyar xidmət göstərəcəkdir.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə KOB dostunun fəaliyyətə başlamasının rayonda sahibkarlığın inkişafına, yeni biznes subyektlərinin yaranmasına öz töhfəsini verəcəyini vurğulayıb.

Tədbirdə KOBİA-nın sahibkarlara göstərdiyi dəstək və xidmətlər, KOB dostu mexanizmi ilə bağlı məlumatlandırıcı filmlər nümayiş olunub, sahibkarların sualları cavablandırılıb.

Sonra tədbir iştirakçıları Zaqatala Heydər Əliyev Mərkəzində yerləşən KOB dostu ofisində sahibkarların qəbulu, onlara dəstək və xidmətlərin göstərilməsi üçün yaradılmış şəraitlə tanış olublar. KOB dostu ofisində "KOB könüllüləri" də fəaliyyət göstərəcəkdir.

Həmin gün KOBİA-nın nümayəndələri Zaqatala rayonunda fəaliyyət göstərən KOB İnkişaf Mərkəzində (KOBİM) də olublar. Qeyd edək ki, Zaqatala-Balakən KOBİM ölkənin 21 şəhər və rayonunda fəaliyyət göstərən KOB inkişaf mərkəzlərindən biridir. Digər KOBİM-lərdə olduğu kimi, burada da sahibkarların, startapların və biznesə yeni başlamaq istəyən şəxslərin sahibkarlıq sahəsində biliklərinin və məlumatlığının artırılması üçün təlimlər keçirilir, məsləhət və digər xidmətlər göstərilir. KOBİM-lər tərəfindən göstərilən bütün xidmətlər ödənişsizdir.

## Bu dəfə badam və qoz bağları güzəştli sığorta olunur

Son illər Azərbaycanda geniş yayılan və iş adamlarına böyük gəlir gətirən badam və qoz bağlarının sığortası başlayıb.

Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi çərçivəsində ilk dəfə olaraq badam və qoz bağlarının da sığortası mümkündür.

Aqrar Sığorta Fondunun məlumatına görə, Nazirlər Kabinetinin 21 dekabr 2021-ci il tarixli qərarı ilə badam və qoz bitkiləri aqrar sığorta predmetlərinin siyahısına daxil edilib. Nəticədə bağ sahibləri öz əkinlərini yeni mexanizm vasitəsilə güzəştli şərtlərlə sığorta edə bilərlər.

Son illər Azərbaycanda badam və qoz bağlarının salınması geniş vüsət alıb. Hazırda ölkə ərazisində 2700 hektar badam bağı var, bunun yarısı intensiv və superintensiv bağlardır.




Ən çox badam bağları Abşeron, Qax, Ağsu, İsmayıllı, Siyəzən, Şabran və Füzulidədir. Qoz bağları isə 6 200 hektardan artıqdır. Ölkədə ən çox qoz bağları Oğuz, Şəki, Zaqatala, Quba, İsmayıllı və Ağcabədidədir. Badam və qoz bağlarının aqrar sığorta haqqı regiondan və məhsuldarlıqdan asılıdır. Ölkənin müxtəlif regionlarında baza zərfi üzrə badam bağının sığortası üçün tariflər 1,56%-2,95% arasında, qoz bağı üçün tariflər isə 2,08%-4,20% arasında dəyişir.

# "Əsas hədəfimiz ölkə iqtisadiyyatının inkişafına davamlı töhfə verməkdir"

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan mətbuat konfransı keçirmişdir. KİV nümayəndələrini salamlayan QSC idarə heyətinin sədri Zakir İbrahimov gündəlikdəki məsələlərlə bağlı ətraflı çıxış etmişdir:**

- 2021-ci il Azərbaycan tarixinə daha bir parlaq səhifə kimi yazıldı. Dünyada hökm sürən dərin sosial-iqtisadi böhrana baxmayaraq, ölkəmizdə bir çox əsas sahələr üzrə inkişaf templəri qorunub saxlanıldı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti nəticəsində Qarabağ Zəfəri siyasi-diplomatik müstəvidə möhkəmləndirildi, ölkəmizin beynəlxalq nüfuzu daha da gücləndi və qarşıya qoyulan əsas hədəflərə nail olundu.

Geridə qoyduğumuz il "AzerGold" üçün olduqca əlamətdar bir dövr hesab edilir. Yubiley ili adlandırdığımız 2021-ci ili nailiyyətlərlə tamamladıq. Hesab edirəm ki, bu 5 il ərzində kifayət qədər uğurlu fəaliyyət həyata keçirməklə bütün sahələr üzrə mühüm nailiyyətlər əldə etmişik.

İlin ən əlamətdar hadisəsi olaraq möhtərəm Prezidentin Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə (ÇİRES) gerçəkləşdirdiyi tarixi səfəri xüsusilə qeyd etmək istəyirəm. Bu səfər fəaliyyətimizə göstərilən ən yüksək diqqət, bizim üçün əlavə stimul mənbəyi oldu. Dövlət başçısı ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Daşkəsən rayonunun ucqar dağ kəndlərindən olan Çovdar kəndinin yaxınlığında yerləşən müəssisəmizə baş çəkdi. Bu əlamətdar gündə geoloqlarımız tərəfindən kəşf edilmiş "Mərəh" qızıl yatağı istismara verildi. Səfər çərçivəsində dövlət başçısı fəaliyyətimizlə bağlı bir sıra vacib tapşırıqlar verdi. Cənab Prezident ötən ayın sonlarında Gəncə şəhərinə səfəri çərçivəsində Daşkəsəndə qızıl və dəmir filizi yataqlarının mövcudluğuna diqqət çəkərək işlərin sürətləndirilməsi üçün əlavə göstərişlər verildiyini xüsusilə qeyd etdi. Əminəm ki, bu tapşırıqların yüksək səviyyədə icrası ilə dövlət başçısının etimadını doğruldacağıq.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da dağ-mədən sənayesində, xüsusən qızıl hasilatı və işlənməsi sahəsində olan perspektivlər ölkə iqtisadiyyatı üçün mühüm inkişaf faktorudur. Təsadüfi deyil ki, ötən il ərzində ölkəmizdən ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl **2-ci sırada** yer alıb. Sevindirici haldır ki, Səhmdar Cəmiyyət qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında ön mövqelərdə qərarlaşıb.

Dövlət başçısının rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafı istiqamətində davam etdirilən islahatlar nəticəsində dağ-mədən sənayesinin bu sahədə payı getdikcə artmaqdadır. 2021-ci ildə Azərbaycanın qeyri-neft sənayesində əlavə dəyər **17,8 faiz,** qeyri-neft emalı sənayesində isə **21,7 faiz** artıb. Qeyri-neft sənayesinin qeyri-neft ÜDM-də xüsusi çəkisi 2021-ci ildə **9,6 faizə** çatıb ki, bu da 2020-ci *(8,5%)* və 2019-cu *(7,6%)* illərlə müqayisədə daha yüksək göstəricidir. Bununla yanaşı, 2021-ci il ərzində ölkəmizin qeyri-neft sektoru üzrə ixrac **2,7 milyard** ABŞ dolları təşkil edib. Bu da 2020-ci il ilə müqayisədə **870 milyon** ABŞ dolları və ya **47,2 faiz** artım deməkdir.

Ötən ili "AzerGold"un fəaliyyəti üçün əlamətdar edən addımlardan biri də QSC-nin korporativ strategiyasının Daşkəsən dəmir filizi yataqları və işğaldan azad edilmiş ərazilərdəki yataqlar nəzərə alınmaqla yeniləşdirilməsi, şirkətin idarəetmə və qanunvericiliyin tələblərinə uyğun yenilənməklə Müşahidə Şurası tərəfindən təsdiq edilməsidir.

QSC-nin strategiyası üzrə müəyyən edilmiş layihələrin icrası çərçivəsində əsas hədəflər bunlardır:

1. QSC-nin növbəti 10 il ərzində **əhəmiyyətli qlobal mədənçilik liderlərindən biri** olmağa hazır olan iri şirkətə çevrilməsi;
2. Əlvan və qara metallar üzrə fəaliyyət nəticəsində 2035-ci ilədək ölkənin məcmu ÜDM-inə **24 milyard manat** həcmində töhfənin verilməsi;
3. Layihələrin icrasının ən fəal mərhələsində **12 min nəfərdən çox işçinin** cəlb edilməsi;
4. Məcmu gəlirin **18.5 milyard manata** çatdırılması;
5. Faiz, vergi və amortizasiya hesablanmazdan əvvəlki mənfəətin (EBITDA) **7 milyard 650 milyon manata** yüksəldilməsi;
6. Dövlət büdcəsinə məcmu vergi ödənişinin **1,7 milyard manat** təşkil etməsi.

Sevindirici haldır ki, strateji hədəflər çərçivəsində ötən il də hasilat, satış, geoloji kəşfiyyat, eləcə də digər sahələrdə işlər plandan daha artıq və tam qrafik üzrə yerinə yetirilib. Şirkətimiz regionlarda yeni mədənlərin işə salınması, iqtisadi səmərəliliyin və dayanıqlı inkişafın artırılması istiqamətində fəaliyyətini uğurla davam etdirib.

"AzerGold"un fəaliyyət sahələri də genişləndirilib. 2021-ci ildə gördüyümüz işlərin təfsilatına gəlincə, istərdim öncə çıxışımın birinci hissəsində QSC-nin əlvan metal yataqları üzrə fəaliyyəti çərçivəsində görülmüş işlər barədə məlumat verim.

"AzerGold" ötən il yataqların mineral-xammal resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi və istehsal proseslərinin optimallaşdırılması üzrə bir sıra vacib addımlar atıb. Məhz bunun nəticəsidir ki, hesabat ilində hasilat göstəriciləri **61,5 min unsiya qızıl, 134,4 min unsiya gümüşə** çatdırılıb. Beləliklə, qızıl hasilatı **plandan 11 faiz,** gümüş hasilatı isə **55 faiz daha artıq** icra edilib. 2020-ci illə müqayisədə 2021-ci ildə qızıl hasilatı üzrə **2.5 faiz,** gümüş hasilatı üzrə **10.9 faiz artım** qeydə alınıb. Cari ildə isə **61074 unsiya qızıl, 122147 unsiya gümüş**ün hasil edilməsi hədəf olaraq müəyyən edilib.

Ötən illərdə "AzerGold" tərəfindən aparılmış əlavə tədqiqat, kəşfiyyat və mədənin optimizasiyası işləri nəticəsində "Çovdar" yatağının oksid mərhələsi üzrə satıla biləcək qızıl ehtiyatı **179 min** unsiyadan **212 min** unsiyayadək yüksəldilib. "Çovdar" yatağının oksid mərhələsi üzrə istismarı 2021-ci ilin aprel ayında tamamlanıb. Eyni zamanda hesabat ilində "Çovdar" yatağının sulfid mərhələsi üzrə oksid filizlərin istismarı nəticəsində **28 min unsiya** hasilat işləri həyata keçirilib. Fəaliyyətdə olduğu 5 il ərzində QSC-nin ümumi hasilat göstəriciləri **256,5 min unsiya qızıl** və **488 min unsiya gümüş** təşkil edir.

Satış sahəsində də uğurlarımız var. Belə ki, məhsullarımızı yerli bazara təklif etdiyimiz 2019- 2021-ci illərdə ümumilikdə **3405 unsiyadan çox** külçə və sikkələrin satışı həyata keçirilmişdir. Bunun da **78 faizi** məhz 2021-ci ildə satılmışdır. Ötən il satılan qiymətlilərin **97 faizini qızıl, 3 faizini isə gümüş** məhsulları təşkil edib və qeyd edilən satışlardan dövriyyəyə ümumilikdə **8,7 milyon manatdan çox** vəsait cəlb edilib. Bu ötən illə müqayisədə **377 faiz artım** deməkdir.

Daxili bazarda canlanma xammal satışı göstəricilərində də özünü göstərib. Belə ki, ötən il ümumilikdə **1000 unsiya xam qızıl, 15 min unsiya xam gümüş**ün satışı həyata keçirilib.

Ötən il **60 min unsiya qızıl və 133 min unsiya gümüş**ün beynəlxalq və yerli pərakəndə bazarlarda satışı nəticəsində **188,3 milyon manat** məbləğində gəlir əldə edilib. 2021-ci ildə qızıl üzrə orta satış qiymətinin azalmasına baxmayaraq, 2020-ci illə müqayisədə qiymətlərin ümumi satışı üzrə daxilolmalar **760 min manat** və ya **0,4 faiz artıb.** Beləliklə, fəaliyyətdə olduğu 5 il ərzində QSC tərəfindən **285 min unsiya qızıl** və **560 min unsiya gümüş**ün satışı nəticəsində ölkə iqtisadiyyatına **755 milyon manatdan çox vəsait** daxil olub.

Yeri gəlmişkən qeyd edək ki, 2021-ci ildə dövlət büdcəsinə ümumilikdə **33 milyon manatdan artıq** vəsait ödənilib ki, bunun da **29,7 milyon manatı** vergi, **3,3 milyon manatdan çoxu** Dövlət Sosial Müdafiə Fonduna ödənişlərdir. Müqayisə üçün bildirim ki, 2020-ci ildə bu göstərici **12,8 milyon manat** təşkil etmişdi. Göründüyü kimi, 2021-ci ilin büdcə ödənişlərində **20,2 milyon manat,** yəni **158 faiz artım** qeydə alınıb. Ümumilikdə, QSC-nin fəaliyyəti dövründə dövlət büdcəsinə vergi və sosial köçürmələr şəklində **73,8 milyon manat** həcmində vəsait ödənilib.

QSC-nin 2020-ci ilin yekunlarına dair maliyyə hesabatları 2021-ci ildə dərc olunub. Beynəlxalq standartlara uyğun müstəqil auditor şirkəti tərəfindən aparılan yoxlamalar nəticəsində müsbət rəy verilən maliyyə hesabatlarına əsasən, 2020-ci il üzrə cəmiyyətin xalis mənfəəti 2019-cu illə müqayisədə **287 faiz** artaraq **82 milyon manat** təşkil edib, həmçinin digər indekslər üzrə də yüksək nəticələr əldə olunub.

Diqqətinizə çatdırım ki, cari ildə müstəqil auditor şirkəti *(Pricewaterhouse Coopers Audit Azerbaijan LLC)* tərəfindən aparılacaq yoxlamaların da müsbət dəyərləndiriləcəyi proqnozlaşdırılır. Cəmiyyətdaxili hesablamalara və 2021-ci il üzrə vergi uçotuna uyğun operativ məlumatlara əsaslanaraq qeyd edə bilərəm ki, QSC-nin xalis mənfəəti təqribən **80 milyon manat** civarında gözlənilir. Auditor şirkəti tərəfindən rəy veriləcək maliyyə hesabatları ənənəvi olaraq geniş ictimaiyyət üçün açıqlanacaq. 2020-2021-ci illər üzrə uğurlu fəaliyyət nəticəsində cari ildə QSC ilk dəfə səhmdarına 20,5 milyon manat məbləğində dividend ödənişi həyata keçirməyi planlaşdırır.

Bununla yanaşı, qeyd etmək istərdim ki, şirkətimiz fəaliyyətə başladığı dövrdən səmərəlilik və dayanıqlı inkişaf prinsiplərini əsas prioritet elan edib. Məhz bu yöndə səylərin nəticəsidir ki, Nazirlər Kabinetinin 257 nömrəli qərarı ilə nəzərdə tutulan səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyi qiymətləndirilməsi çərçivəsində "AzerGold"un səmərəlilik əmsalı **270 faiz** olub.

Qızıl yataqları üzrə layihələrin icrası ilə bağlı maliyyələşmənin dövlət büdcəsindən asılılığın aradan qaldırılması da, şirkətimizin əsas nailiyyətlərindən biridir. Xatırladım ki, QSC-nin strateji hədəflərində müəyyən edildiyi kimi, digər əlvan metal yataqları üzrə layihələrin icrası ilə bağlı dövlət büdcəsindən asılılığın da 2025-ci ildən etibarən aradan qaldırılması nəzərdə tutulur.

Ötən il Azərbaycan-Türkiyə Enerji Forumu çərçivəsində Azərbaycan və Türkiyə hökumətləri arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb. Forum çərçivəsində həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi, "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti, Türkiyə Respublikası Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi və MTA Beynəlxalq Mədənçilik Şirkəti arasında əməkdaşlığın həyata keçirilməsi sahəsində dördtərəfli Anlaşma Memorandumuna imza atıldı. Yeraltı sərvətlərin axtarışı, qiymətləndirilməsi, məlumat və təcrübə mübadiləsi kimi istiqamətləri əhatə edən Anlaşma Memorandumunun imzalanmasında əsas məqsəd geologiya və mədənçilik sahələrində elmi və texniki əməkdaşlığın həyata keçirilməsi, birgə kəşfiyyat işlərinin yerinə yetirilməsindən ibarətdir. Bununla yanaşı, memorandumu imzalayan tərəflər Azərbaycanda fəaliyyət göstərəcək birgə müəssisə və ya şirkətin yaradılması imkanlarını da araşdıracaqlar. Türkiyənin bu sahədə geniş təcrübəsi nəzərə alınmaqla Anlaşma Memorandumu ölkəmizin dağ-mədən sektorunun gələcək inkişafı üçün atılmış növbəti uğurlu addımdır. Sözügedən sənəd iqtisadiyyatın bütün sahələrində olduğu kimi, dağ-mədən sektorunda da qardaş Türkiyə ilə əlaqələrin daha da möhkəmləndirilməsinə mühüm töhfələr verəcək.

Ötən illərdə olduğu kimi, hesabat ilində də Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin zəngin mineral-xammal potensialının dayanıqlı iqtisadi inkişafa çevrilməsi istiqamətində fəal iş aparılıb. Artıq bir neçə ildir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə ölkə üzrə mövcud əlvan və qara metal filizi yataqları ilə bağlı məlumat arxivinin yenilənməsi həyata keçirilib. Artıq keçmiş sovet dövründə aparılmış geoloji kəşfiyyat işləri barədə toplanılan məlumatlar, (xəritə, mətn və qrafik əlavələr) elektronlaşdırılıb, beynəlxalq standartlara uyğun olaraq hər bir yataq üzrə məlumat bazası yaradılıb. Görülən işlər yataqların iqtisadi və ekoloji cəhətdən daha effektiv idarəedilməsinə kömək edəcək. Geoloji məlumatların rəqəmsallaşdırılması əlvan və qara metal sənayesinin xarici investorlar üçün cəlbediciliyini artıracaq.

Hesabat dövründə QSC-nin 2021-ci il üçün fəaliyyət planına uyğun olaraq, perspektiv sahələrdə yeni yataqların istismara verilməsi istiqamətində kəşfiyyat və tədqiqat işləri davam etdirilib. Ümumilikdə il ərzində **82,304 metr** buruq-qazma işləri görülüb ki, bu da ölkənin dağ-mədən sənayesi üzrə yeni rekord hesab olunur.

Bununla yanaşı, yataqlar və perspektiv sahələr üzrə **43703 nümunə** əsasında müvafiq laboratoriya təhlilləri aparılıb, QSC-nin beynəlxalq hesabatlılıq standartları əsasında bəyan etdiyi metal ehtiyatlarının artımına nail olunub. Belə ki, 2017-ci ildə **179 min qızıl ekvivalentində unsiya** olaraq hesablanan metal ehtiyatları 2021-ci ildə **4,4 milyon qızıl ekvivalentində unsiya qədər,** yəni **24 dəfə** artırılıb.

Çovdar İnteqrəolunmuş Regional Filiz Emalı Sahəsinin dayanıqlı fəaliyyətini təmin etmək məqsədilə il ərzində "Çovdar" yatağının sulfid mərhələsi və yan sahələrin - yaxın və uzaq cinahların tədqiqatı işləri davam etdirilərək bir sıra uğurlar əldə edilib. Yataq üzrə **212 min unsiya satılabiləcək qızıl** ehtiyatına əlavə olaraq Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin **8 illik** istismar müddəti ərzində **470 min unsiya** satılabiləcək qızıl miqdarı təsdiqlənib. Beləliklə, "Çovdar" və cinah yataqlar üzrə satılabiləcək qızıl miqdarı ümumilikdə **682 min unsiyaya qədər** artırılıb.

Qeyd edilən filiz həcmlərinin emalının təşkili üçün beynəlxalq məsləhətçi şirkətin iştirakı ilə maksimum səmərəliliyi təmin edən emal metodologiyasının seçilməsi istiqamətində araşdırmalar aparılıb və ən optimal olan çən aşındırma (CİL) metodu emal üsulu olaraq təyin edilib. Bu metoda uyğun istehsalatın təşkili məqsədilə beynəlxalq məsləhətçi şirkət tərəfindən ilkin lahiyələndirmə işləri aparılıb. Layihəni icra edəcək podratçının seçimi, tikinti layihəsinin idarəedilməsi və keyfiyyətə nəzarət məqsədilə Cənubi Koreyanın "Heerim Architects & Planners Co" məsləhətçi şirkəti cəlb edilmişdir. Zavodun tikintisi və müvafiq infrastrukturun qurulması üzrə satınalma prosedurlarına uyğun "Maqro Construction" türk şirkəti ilə müqavilə bağlanılıb.

**2022-ci ilin sonu - 2023-cü ilin əvvəlində** istismara veriləcək zavodda "Çovdar" yatağının sulfid mərhələsi üzrə hasil ediləcək filizlər - "Mərəh", "Ağyoxuş 2", "Tülallar" və onun cinah sahələri, eləcə də şirkətimizin geoloqları tərəfindən ötən il aparılmış kəşfiyyat işləri nəticəsində aşkarlanan "Nərimanlı" potensial qızıl yatağından çıxarılacaq filiz süxurlarının emal edilməsi planlaşdırılır. Yeri gəlmişkən, hazırda "Nərimanlı" yatağından götürülmüş süxur nümunələri beynəlxalq laboratoriyada analiz edilir. Analiz nəticələri əsasında resursların beynəlxalq standartlara uyğun olaraq hesablanması və mədən dizaynının hazırlanması işlərinin cari ildə icra edilməsi, yataq üzrə resurs hesabatı, mədən dizaynı və istehsalat planının 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulub.

Qazax-Ağstafa bölgələrini əhatə edən "Dağkəsəmən" qızıl yatağı üzrə də eyni qaydada buruq-qazma işləri icra edilərək nümunələr analiz məqsədilə keçirilən açıq tenderin qalibi olan İndoneziyada yerləşən beynəlxalq laboratoriyaya göndərilib və bir neçə nümunə üzrə müsbət nəticələr əldə edilib. Geridə qalan nümunələrin nəticələri əsasında kəşfiyyat və tədqiqat işləri ilə bağlı növbəti addımların müəyyən edilməsi planlaşdırılır.

Bilirsiniz ki, QSC tərəfindən işğaldan azad edilmiş ərazilərdə mövcud olan əlvan metal yataqları ilə bağlı aparılan araşdırmalar çərçivəsində Kəlbəcər rayonunun cənub-şərqində Tutxun çayı hövzəsində yerləşən eyniadlı yataqda mərhələli axtarış işlərinin aparılması üçün ötən ilin payızından müvafiq işlərə başlanılıb. Ümumilikdə təqribən 300 kvadrat kilometrlik ərazidə yerləşən "Tutxun" yatağı qrupu və cinah ərazilər - Oruclu, Başlıbel, Xanlanlı, Əsrik və digər sahələrdə nəcib metalların mərhələli axtarışı məqsədilə müvafiq prosedurlar icra edilib. Yataq üzrə 2021-2024-cü illəri əhatə edən geoloji-kəşfiyyat proqramı çərçivəsində tədqiqat işləri davam etdirilir. Eyni zamanda süni peyklərdən hiperspektral görüntülərin alınması, onların işlənilməsi, tədqiqatlarının icrası üçün müasir normalara cavab verən məsafədən (qeyri-invaziv) tədqiqatların yerinə yetirilməsi məqsədilə müvafiq işlər görülməkdədir. "Tutxun" yataqları qrupu və cinah sahələrdə geoloji kəşfiyyat işlərinin aparılması məqsədilə sözügedən ərazilərin mina və partlamamış hərbi sursatlardan tam olaraq təmizlənməsi istiqamətində də müvafiq qurumlar tərəfindən zəruri addımlar atılır.

Hesabat ilində "Filizçay" və digər polimetal yataqlarının planlaşdırılan dövrlərdə istismara verilməsi məqsədilə müvafiq geoloji kəşfiyyat və tədqiqat, eləcə də texniki-iqtisadi yöndə fəaliyyət davam etdirilib. Məlum olduğu kimi, Balakən rayonunun inzibati ərazisində yerləşən "Filizçay" yatağı regionun ən böyük polimetal yatağı və "AzerGold"un ən iri həcmli layihələrindən biridir. Bununla yanaşı, tərkibində olan filiz ehtiyatlarının həcminə görə "Filizçay" Avropanın və dünyanın ən iri polimetal yataqları siyahısında yer alır. 2021-ci ildə yataq üzrə əlavə resursların aşkarlanması məqsədilə **3231 metr** həcmində buruq-qazma işləri icra edilib, nümunələrin Türkiyədə yerləşən beynəlxalq laboratoriyada analizi yekunlaşdırılmış və müsbət nəticələr əldə edilib. Yataqda sink, qızıl, gümüş, mis və qurğuşun kimi qiymətli və əlvan metallar mövcuddur. "Filizçay" yatağının 2025-ci ildə istismara verilməsi planlaşdırılır, eyni vaxtda yataq üzrə resursların artımına yönəlmiş əlavə kəşfiyyat işləri və onların təsdiqlənməsi, həmçinin filiz süxurlarının mürəkkəb mineroloji və metallurji xüsusiyyətləri nəzərə alınmaqla daha optimal metal tərkibinin əldə edilməsi üzrə emal proseslərinə dair texnoloji sxemin müəyyənləşdirilməsi üçün məsləhətçi şirkət tərəfindən əlavə işlərin icra edilməsi də tövsiyə edilir. "Filizçay" yatağının 27 il nəzərdə tutulmuş istismar dövrü ərzində ölkə iqtisadiyyatına milyardlarla vəsaitin cəlb edilməsi planlaşdırılır. Bundan əlavə, yatağın istismarı 1000-dən çox yeni iş yerinin açılması deməkdir. "Filizçay" layihəsinin icrası ümumilikdə Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişafına öz əhəmiyyətli töhfəsini verəcək.

QSC-nin portfelinə daxil olan digər mis və sink yataqları üzrə müvafiq geoloji kəşfiyyat və tədqiqat işləri davam etdirilib. Təsdiq olunmuş plana əsasən, geoloji işlərin kifayət qədər uğurlu və layihələrin iqtisadi cəhətdən səmərəli olduğu halda Balakən rayonunda yerləşən "Mazımçay" mis və Naxçıvan Muxtar Respublikasında Göydağ saziş sahəsinin ərazisində yerləşən "Ortakənd" mis-qızıl yatağının 2027-ci ildə istimara verilməsi nəzərdə tutulub.

Bildiyiniz kimi, Prezident İlham Əliyevin "AzerGold"a göstərdiyi böyük etimadın nəticəsi olaraq QSC-nin fəaliyyət istiqamətlərinə ölkə ərazisində qara metal filizi yataqlarının tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, bu sahənin inkişafına dair digər vəzifələr əlavə edilib. Bununla da irəli gələn müvafiq tapşırıqların icrası, ölkə ərazisində dəmir filizi yataqları üzrə fəaliyyətin təşkili məqsədilə "AzerGold" QSC tərəfindən ilk törəmə hüquqi şəxs qismində "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Şirkət "AzerGold"un korporativ standartları əsasında təşkil edilib. MMC-nin Ümumi Yığıncağı və Müşahidə Şurasının əsasnamələri təsdiq edilib, uzunmüddətli korporativ strategiyası hazırlanıb, "Daşkəsən Filizsaflaşdırma" ASC-nin Ləğvetmə Komissiyası ilə aktivlərin alqı-satqı işləri nəticəsində 18,6 milyon manat dəyərində əmlak DDF MMC tərəfindən balansa götürülüb. Şirkətin mərkəzi ofisi yaradılıb, Daşkəsən dəmir filizi sahəsinin inzibati ərazisində abadlıq işləri aparılıb.

Məlum olduğu kimi, Daşkəsən dəmir filizi sahəsində 6 yataq mövcuddur. Bu yataqların sovet dövrundə filiz ehtiyatı 290 milyon ton həcmində qiymətləndirilmişdir. 1954-2017-ci illər ərzində 92 milyon ton filiz (34,4 faiz dəmir) hasil edilib və nəticədə 42 milyon ton 58.3 faiz dəmir tərkibli konsentrat istehsal olunmuşdur.

Sözügedən yataqlardan ikisi - "Şimal-qərb" və "Cənub-şərq" yataqlarından dəmir filizlərinin açıq üsulla, digərlərindən isə şaxta üsulu ilə çıxarılmasının mümkün və şaxta üsulu ilə istismarın daha mürəkkəb və uzun sürən proses olduğunu nəzərə alaraq daha tez nəticələrin əldə edilməsi məqsədilə birinci mərhələ olaraq "Şimal-qərb" və "Cənub-şərq" yataqlarında ilkin tədqiqat işlərinə başlamışıq.

Cari ildə bu iki yataq üzrə İlkin Qiymətləndirmə sənədinin hazırlanması işləri çərçivəsində 15 min metrə yaxın geoloji, 1000 metrdən çox həcmdə geotexniki buruqqazma işləri icra edilib, layihənin iqtisadi modeli hazırlanıb. Beynəlxalq standartlara uyğun olaraq, "Şimal-qərb" yatağında dəmir filizinin miqdarı **74,3 milyon ton,** "Cənub-şərq" yatağında isə **113 milyon tondan artıq** olmaqla, ümumilikdə **187,3 milyon ton olaraq** təsdiqlənib. Hazırda karxana istismar planları hazırlanmaqdadır.

Qısa müddət ərzində dəmir filiz yataqların hasilata verilməsi və metal qırıntıları əvəzləyən, həmçinin daha keyfiyyətli metallurji məhsulların istehsalı üçün xammala tələbatın ödənilməsi məqsədilə fəaliyyətin 2 mərhələ üzrə təşkil edilməsi planlaşdırılır. Birinci mərhələdə yüksək dəmir tərkibli filiz konsentratının, ikinci mərhələ üzrə isə birbaşa reduksiya edilmiş dəmirin (və ya isti briketləşdirilmiş dəmirin) istehsalı nəzərdə tutulub. Zavodun fəaliyyətə başlaması ilə illik 1,2 milyon həcmində konsentrat, 1,2 milyon ton pələt və 0,8 milyon ton həcmində birbaşa reduksiya dəmirin istehsalı proqnozlaşdırılır.

İlkin qiymətləndirmə sənədinin hazırlanması işləri çərçivəsində yataqlar üzrə təqribi 33-34 faiz dəmir tərkibli filizdən 67 faiz dəmir tərkibli konsentratının istehsalı üçün ilkin texnoloji zəncir müəyyən edilmiş və hədəflənən dəmir miqdarının əldə edilməsi üçün zənginləşdirmə zavodunun qurulması nəzərdə tutulub. Filizlərin zənginləşmə səviyyəsinin öyrənilməsi və texnoloji proses zəncirinin layihələndirilməsi məqsədilə götürülmüş filiz nümunələrin Avstraliyada yerləşən beynəlxalq laboratoriyalarda analizi aparılaraq müsbət nəticələr əldə edilib.

"Daşkəsən" dəmir filizi yatağı üzrə 2023-cü ildə dəmir konsentratının istehsalı zavodunun, 2025-ci ildə isə pələt və birbaşa reduksiya dəmirin (DRI) istehsalı zavodunun istismara verilməsi hədəflənir. Eyni zamanda həmin zavodun daxili və xarici infrastrukturu layihələndirilmə mərhələsindədir, dəmir filiz konsentratını zənginləşdirmədən pelet DRİ-a çatdırılması üçün alternativ logistik həllər hal-hazırda bu müəssisələr arasında logistik alternativlər üzrə təhlillər nəzərdən keçirilir.




Ölkədə metallurji xammal bazasının formalaşdırılması üçün konsentrat, pələt və birbaşa reduksiya dəmir istehsalına xidmət edəcək zavodların qurulması məqsədilə təqribən **1 milyard manat** (ƏDV xaric) məcmu investisiya nəzərdə tutulub. Layihənin icrası ilə bağlı dövlət büdcəsindən asılılığın aradan qaldırılması üçün alternativ maliyyələşmə mənbələrindən istifadə edilməsi və ya investorların cəlb edilməsi üzrə işlər davam etdirilir.

Beynəlxalq məsləhətçi şirkətin layihə ilə bağlı apardığı hesablamalar nəticəsində məcmu ÜDM-ə (2021-2035) **6.8 milyard manat** həcmində töhfənin verilməsi, layihənin icrası müddətində birbaşa və dolayı effekti nəzərə alaraq, illik 3300 nəfərin daimi iş yerləri ilə təmin edilməsi ilə regionun məşğulluq göstəricisinə töhfə verilməsi planlaşdırılır.

Qeyd edim ki, "Şimal-qərb" və "Cənub-şərq" dəmir filizi yataqlarının istismar müddətində sadalanan digər dəmir filizi yataqlarının istifadəyə hazırlanması və hasilata cəlb edilməsi ümumilikdə layihənin iqtisadi səmərəsini bir neçə dəfə artırmış olacaq.

2021-ci ildə QSC üçün daha bir əlamətdar hadisə şirkətin ikinci törəmə müəssisəsi olan "AzerBlast" MMC-nin təsis edilərək fəaliyyətə başlamasıdır. MMC ötən ilin mart ayında dövlət qeydiyyatına alınıb. Şirkətin yaradılmasında məqsəd mədənlərin istismarı prosesində, eləcə də digər sənaye sahələrində istifadə olunan mülki partlayıcı maddələrə daxili tələbatın ödənilməsi, fasiləsiz tədarük zəncirinin təmin edilməsi və idxal asılılığın tədricən aradan qaldırılmasıdır. Həmçinin şirkət gələcəkdə istehsal ediləcək məhsulların xarici bazarlara çıxarılmasını, ölkəmizin ixrac potensialının artırılmasına töhfə verməyi hədəf olaraq müəyyən edib. Dövlət-özəl sektor tərəfdaşlığı modeli əsasında təsis edilən şirkətin ümumi səhmlərinin **51 faizi** "AzerGold"a, **49 faizi** isə "DM Servis" MMC-yə məxsusdur. 2013-cü ildə təsis edilmiş "DM Servis" MMC mülki partlayıcı maddələr və innovativ partlayış sistemlərinin istehsalı sahəsində qabaqcıl təcrübəyə malikdir.

Sənaye partlayıcı maddələrin istehsalı zavodunun qurulması istiqamətində hesabat ili ərzində müvafiq işlərin icrası davam etdirilib. Zavodun fəaliyyəti nəticəsində dağ-mədən və inşaat sənayesində istifadə olunan Anfo və qeyri-Anfo məhsullarının istehsalı nəzərdə tutulur. 2022-ci ilin sentyabr ayında istismara verilməsi planlaşdırılan zavodun proqnoz məhsuldarlıq gücü yerli proqnoz tələbatın nəzərə alınması ilə 31 min ton proqnozlaşdırılır.

"AzerGold" ölkədə dağ-mədən sənayesinin inkişafı üçün ən vacib elementlərdən sayılan kadr potensialının artırılmasına da xüsusi önəm verir. Sevindirici haldır ki, hazırda hasilat və emal işlərini həyata keçirdiyimiz Daşkəsən rayonunda məşğulluğun səviyyəsi xeyli artıb. 2021-ci il ərzində QSC-nin uğurları üçün çalışan əməkdaşlarının sayı mədən ərazisində fəaliyyət göstərən podratçı şirkətlərlə birgə 1200 nəfərdən artıq olub. Hazırda QSC-də **32 nəfər** 2-ci Qarabağ müharibəsi iştirakçısı, **7 nəfər** müharibə veteranı adı almış şəxs və **7 nəfər** şəhid ailəsi üzvü çalışmaqdadır. Bir daha xatırladım ki, Cəmiyyətin əlvan və qara metallar üzrə layihələrinin icrasının ən fəal mərhələsində **12 min nəfərlik** iş yerinin açılması hədəf olaraq müəyyən edilib.

Ötən il Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq çərçivəsində Cəmiyyətin kadr ehtiyaclarına uyğun olaraq 11 vəzifə üzrə **85 ixtisaslı kadr**ın hazırlanması layihəsinə start verilib. Peşə Təhsili üzrə Dövlət Agentliyinin nəzdində olan Peşə Təhsil Mərkəzlərindən seçilmiş **20 tələbə** təqaüd proqramına cəlb edilib. Bununla yanaşı, dağ-mədən sahəsi üzrə kadrların inkişaf etdirilməsi məqsədilə ali məktəb tələbələri üçün "Təqaüd proqramı" müsabiqəsi elan olunub. Müsabiqəni uğurla keçən **10 nəfər tələbə**nin müvafiq təltifnamə və 9 ay müddətində hər ay 200 manat olmaqla, təqaüdlə təmin edilməsi, həmçinin cəmiyyətdə təcrübə proqramlarını bitirdikdən sonra müvafiq vəzifələr üzrə işlə təmin edilməsi nəzərdə tutulub.

Əlbəttə ki, biz bununla kifayətlənmək fikrində deyilik. QSC-nin orta və uzunmüddətli korporativ strategiyası çərçivəsində növbəti illər üzrə kadr ehtiyacları müəyyən edilmiş və kadrların zamanında cəlb edilməsinin təmin edilməsi istiqamətində tədbirlər cari ildə də davam etdiriləcək.

Hesabat ili dövründə fəaliyyət sahələrində dayanıqlı təhlükəsiz iş şəraitinin təmin edilməsi məqsədilə əməyin mühafizəsi və texniki təhlükəsizlik, habelə digər əlaqəli sahələr üzrə müvafiq tədbirlər fəaliyyət planına uyğun olaraq uğurla icra edilib. 2021-ci ildə xəsarətsiz ötüşən iş saatlarının miqdarı **750774 saat** olmaqla, ümumilikdə 2016-2020-ci illər ərzində xəsarətsiz ötüşən iş saatlarının miqdarı **2 milyon 700 min saatı** ötmüşdür. Bu, 5 ildir ki, fəaliyyət göstərən bir müəssisə üçün olduqca yüksək göstərici hesab olunur. Hər zaman bu şüarı qeyd edirik: işçilərin sağlamlığı, təhlükəsiz iş şəraiti əsas öncəliyimizdir!

Məlum olduğu kimi, ekoloji siyasət bizim fəaliyyətimizdə əsas prioritetlərdəndir. Fəaliyyət sahələri üzrə ətraf mühitə təsirlərin qiymətləndirilməsi məqsədilə sahələrdə ətraf mühitin monitorinqi işləri aparılır. Monitorinq zamanı atmosfer havasının toz və zərərli qazlarla çirklənməsi, həmçinin ətraf mühitin fiziki təsirlərlə (səs-küy, titrəyiş) çirklənməsi üzrə instrumental müşahidə işləri yerinə yetirilir. Cəmiyyət tərəfindən hazırlanmış tədbirlər planı çərçivəsində kəşfiyyat, hasilat və emal prosesi zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülür. Bununla yanaşı, ətraf ərazilərin tullantılardan təmizlənməsi üçün mütəmadi iməcilik tədbirləri keçirilir, ətraf mühitə töhfə vermək və ekosistemin bərpası üçün mütəmadi ağacəkmə aksiyaları keçirilir. Bu günə qədər keçirilmiş ağacəkmə aksiyaları və yaşıllaşdırma işləri çərçivəsində "Çovdar" mədənin ərazisində 10000-dən çox ağac və kol əkilib. Ekologiya sahəsində görülən işlərin davamı olaraq qeyd edilməlidir ki, QSC-də istehsalat prosesi nəticəsində yaranan bütün növ tullantılar qanunamüvafiq şəkildə idarə olunur. İstehsal fəaliyyəti zamanı yaranan, eləcə də yararsız hesab edilən tullantılar: civə, aktiv karbon, yağ, akkumulyator və PET şüşələr təkrar emal üçün yönəldilir.

Hər bir şirkətin icbari olaraq daşıdığı hüquqi məsuliyyəti var. Korporativ sosial məsuliyyət isə tamamilə könüllülük prinsipinə əsaslanan fəaliyyət növüdür. "AzerGold"un sosial fəallıq proqramları könüllü və sistemli xarakter daşıması şirkətin missiyası və inkişaf strategiyası, eləcə də dövlətin sosial yöndə həyata keçirdiyi tədbirlərə dəstək niyyəti ilə bağlıdır. Hər il olduğu kimi, 2021-ci ildə də cəmiyyətimiz tərəfindən KSM sahəsində bir çox layihələr uğurla icra edilib. Ötən il təhsil, sağlamlıq, ətraf mühitin mühafizəsi, tarixi və mədəni irsə töhfə, sosial yardım və digər istiqamətlər üzrə çoxsaylı layihələr həyata keçirilib. Cari ildə KSM çərçivəsində fəaliyyət planı təsdiq olunub. Bir neçə orta və iri layihənin icrasına start verilib.

Məlumdur ki, cənab Prezidentin rəhbərliyi ilə hökumət tərəfindən həyata keçirilən dövlət proqramları və tədbirlər müvafiq olaraq qeyri-neft sektorunun inkişafına zəmin yaradıb. Hazırda dövlətimiz qeyri-neft sektorunun inkişafını özünə prioritet sahə və əsas vəzifələrdən biri olaraq müəyyən edib. Buna görə də ölkədə diqqət əhalinin rifah səviyyəsinin yüksəldilməsi, ixracyönümlü iqtisadiyyata keçid və iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasına yönəldilib.

Bütün bu kimi müsbət meyillər ölkənin aparıcı mədən şirkəti olaraq bizim də öhdəliyimizə ciddi hədəflər qoyur. Dövlət şirkəti olaraq iqtisadiyyatın inkişafına davamlı töhfələrimizi vermək, qeyri-neft sektorunun şaxələndirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinə öz dəstəyimizi göstərmək bizim missiyamız və başlıca hədəfimizdir.

Əminəm ki, cari il ərzində də qarşıya qoyulan məqsədlərə nail olunacaq, xüsusilə mədən sahələrinin istismara verilməsi, yeni iş yerlərinin yaradılması ilə bölgələrin sosial-iqtisadi mənzərəsinin daha da yaxşılaşdırılması istiqamətində ciddi uğurlara imza atılacaq.

***"Azərbaycan"***

# Lənkəranda 20 Yanvar şəhidinin abidə kompleksinin açılışı olub





20 Yanvar şəhidi Rövşən Bədəlovun adını daşıyan şəhər 9 saylı tam orta məktəbin məzunlarından bir nəfəri 1990-cı il 20 Yanvar hadisələri zamanı, 6 nəfəri isə Qarabağ müharibəsində erməni işğalçılarına qarşı qanlı döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Məktəbin müəllim və şagird kollektivi şəhid məzunların xatirəsini heç vaxt unutmur, daim əziz tutur. Şəhid valideynlərinin və doğmalarının iştirakı ilə məktəbdə tez-tez şəhidlərə həsr olunmuş xatirə günləri və digər tədbirlər keçirilir, onların qəhrəmanlıqları barədə şagirdlərə ətraflı məlumatlar verilir.

Bu günlər məktəbin məzunları olmuş şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə tikilmiş abidə kompleksinin açılışı olub. Bu münasibətlə keçirilən tədbirdə şəhər rəhbərliyi, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi qaziləri, ictimaiyyət nümayəndələri, məktəbin şagird və müəllim kollektivi iştirak ediblər.

Tədbirdə çıxış edən Lənkəran ŞİH-in başçısı T.Qaraşov dövlət müstəqilliyimizin və işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün görülən işlərin milli-mənəvi dəyərlərin geniş təbliğində, gənc nəslin vətənpərvər ruhda tərbiyələnməsində mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Tədbir məktəblilərin ifasında şəhidlərə həsr olunmuş ədəbi-bədii kompozisiya ilə başa çatıb.

***Ağaddin BABAYEV,***
***"Lənkəran" qəzetinin əməkdaşı***

# Selçuk Bayraktar Hərbi Qənimətlər Parkını ziyarət edib

**Türkiyənin "Baykar" şirkətinin texniki direktoru və "TEKNOFEST" İdarə Heyətinin sədri Selçuk Bayraktar Hərbi Qənimətlər Parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə S.Bayraktar "Tviter" hesabında paylaşım edib. S.Bayraktar paylaşımında bildirib: "Qarabağ müharibəsində ələ keçirilən hərbi texnikanın nümayiş etdirildiyi Hərbi Qənimətlər Parkında olduq. Bu münasibətlə qələbənin memarlarını, bütün şəhidlərimizi bir daha rəhmətlə, qazilərimizi isə minnətdarlıqla yad edirik. Qələbəyə görə Rəbbimizə şükürlər olsun".




# Vətən müharibəsi şəhidinin doğum günündə xatirəsi anılıb



Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Xocavənd rayonunun Tuğ kənd sakini şəhid Tural Bəylər oğlu Abdullayevin doğum günü münasibətilə məzarı ziyarət olunub.

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyası Xocavənd rayon təşkilatının nümayəndələri və partiya fəalları şəhidin məzarını ziyarət edərək, önünə tər güllər düzüb, xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Daha sonra canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin ruhlarına dualar oxunub, xatirələri bir dəqiqəlik sükutla yad edilib.

# Koronavirusla bağlı ölüm halları yenidən artıb




## "Omikron""Delta"nı çox sürətlə üstələyib

***Əvvəli 1-ci səh.***

### Ən təhlükəli variant

Son günlər ərzində Azərbaycanda da "Omikron"a yoluxma halları artır. TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev deyib ki, "Omikron"un mənfi cəhəti onun "Delta" variantına nisbətən daha sürətlə yayılma xüsusiyyətinə malik olmasıdır: "Bunu gündəlik yoluxma hallarındakı artımla da aydın şəkildə görmək olar. Ancaq xəstəxanaya yatış ehtiyacı və ölüm riskinin "Delta" variantına görə daha aşağı olması müsbət haldır. Buna baxmayaraq, vətəndaşlar arxayınlaşmamalıdırlar. Çünki nə qədər sürətli artım olarsa, dolayı yolla xəstəxanaya yatış ehtiyacı da arta bilər. Məsələn, "Delta" variantında 10 nəfərdən birinin hospitalizasiya ehtiyacı olurdusa, "Omikron" ştamında 20 xəstədən biri xəstəxanada müalicə alır. Virusun sürətlə yayılması hesabına xəstəxanalar yenidən yüklənə bilər, lakin bunu proqnozlaşdırmaq hələ tezdir. Hələ ki Azərbaycanda çarpayı sayları yetəri qədərdir. Buna baxmayaraq, COVID-19-a yoluxma sayları kifayət qədər çoxdur. Yaxın günlərdə daha yüksək yoluxma sayları görə bilərik. Bunun qarşısını almaq üçün vətəndaşlar vaksinləşmə prosesini gecikdirməməlidirlər".

Hazırda "Omikron" bütün dünyada COVID-19-a yoluxma hallarının yarısını təşkil edir. Artıq ÜST-də "Omikron"un dörd variantı - "BA.1", "BA.1.1", "BA.2" və "BA.3" tədqiq edilir. "Omikron"un indiyədək ən çox yayılmış altvariantının "BA.1" olduğu deyilsə də, ilkin məlumatlar əsasında "BA.2" variantı ən təhlükəli hesab olunur. İndi bəzi ölkələr, xüsusilə Asiya və Avropa ölkələri də "BA.2" variantının artdığını bildirirlər. BA.2 digər subvariantlara nisbətən daha yoluxucu görünsə də, onun daha ağır xəstəliyə səbəb olduğuna dair hələ heç bir sübut yoxdur.

ÜST-ün Afrika ofisinin baş virusoloqu Niksi Qumede-Moeletsi bildirib ki, "BA.2"ni müəyyən etmək çox çətindir, çünki "Omikron" ştamını aşkar etmək üçün hazırlanmış koronavirus testləri onu "görmür".

Həkimlər açıqlayırlar ki, "Omikron" ştamı daha çox yuxarı tənəffüs yollarının əlamətləri ilə özünü büruzə verir. Bununla yanaşı, ona yoluxma zamanı yüksək hərarət də müşahidə edilir. Belə xəstələrdə iybilmə, dadbilmənin itirilməsi əvvəlki ştamlara nisbətən daha azdır. Bəzən həmin qabiliyyətlərin qorunub saxlanılması, bəzən isə bir qədər gec itirilməsi müşahidə edilir. Pnevmoniya yaratmaq qabiliyyəti də "Omikron" da "Delta" ilə müqayisədə daha zəifdir.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, "Omikron"un əlamətləri burun axması və baş ağrısından tutmuş bədən ağrılarına və gecə tərləmələrinə qədər hər şey ola bilər. Diqqət edilməli olan digər simptomlar boğazda qaşınma, asqırma, bel ağrısı və yorğunluqdur.

Tədqiqatlara əsaslanaraq qeyd edilir ki, "Omikron"un simptomları soyuqdəymə ilə oxşardır. Bu səbəbdən soyuqdəymə əlaməti olan boğazda qaşınma, boğulma halları və xırıltılı səs "Omikron"un ilkin əlamətlərindən ola bilər. Lakin bütün hallarda ən düzgün nəticəni COVID-19 testi ilə əldə etmək mümkündür.

### "Pandemiyanın müddəti uzandıqca onun fəsadları daha ciddi olacaq"

ÜST-ün aparıcı epidemioloqu M.Kerkhov bildirib ki, "Omikron"a yoluxma zamanı xəstəliyin gedişatının fərqli formalarda olması mümkündür. Bu formalar simptomsuz vəziyyətdən tutmuş ağır, ölüm halınadək olan hər cür durum ola bilər. O təsdiqləyib ki, bütövlükdə bu ştam az hallarda xəstəxanaya yatırılma ilə nəticələnir. Lakin virusu ağır keçirən və ona tab gətirməyən kifayət qədər insan var.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus isə bu günlərdə ölkələri yenidən vaksinləşdirmə üçün səylərini birləşdirməyə çağırıb.

ÜST-ün daha çox insanı vaksinlə təmin etmək üçün əlindən gələni etdiyini deyən baş direktor qeyd edib ki, yaranmış vəziyyətdə qurumun qarşısına qoyduğu əsas məqsəd 2022-ci ilin ortalarınadək bütün ölkələrdə əhalinin azı 70 faizinin koronavirus əleyhinə peyvəndlənməsinin təmin edilməsidir. Bu hədəfə nail olmaq üçün dövlətlər arasında qarşılıqlı fəaliyyətin olması olduqca vacibdir. Bundan başqa, belə qarşılıqlı əlaqə səhiyyə və inklüziv iqtisadi bərpa sistemlərinin möhkəmləndirilməsi üçün də əhəmiyyətlidir.

ÜST rəhbəri bildirib ki, hazırda Birləşmiş Millətlər Təşkilatının üzv ölkələrinin əhalisinin yalnız 42 faizi koronavirus əleyhinə tam dozada vaksin olunub. Bu baxımdan ayrı-ayrı dövlətlər arasında əhəmiyyətli dərəcədə fərq mövcuddur. Belə ki, Afrika ölkələrində vaksinlənmənin orta səviyyəsi yalnız 23 faiz təşkil edir. Bu uyğunsuzluğu adlamağı təcili prioritet adlandıran Gebreyesus xatırladıb ki, pandemiyanın müddəti uzandıqca onun fəsadları daha ciddi olacaq. Dünya koronavirus pandemiyasının fəsadlarını hələ onilliklər ərzində müşahidə edəcək: "Bu pandemiyanın təsiri xüsusilə daha həssas qruplar arasında hələ onilliklər boyunca hiss olunacaq".

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***







# Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar beynəlxalq təşəbbüslərin dəstəklənməsi ilə bağlı QHT-lərlə müzakirələr aparılıb

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına (QHT) Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü İsrayıl İsgəndərov və layihələrin idarə edilməsi üzrə menecer Ülkər Süleymanova "Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar beynəlxalq təşəbbüslərin dəstəklənməsi" istiqaməti üzrə QHT nümayəndələri ilə onlayn görüş keçiriblər.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, görüşün məqsədi Xocalı soyqırımı ilə bağlı layihə çərçivəsində nəzərdə tutulan tədbirlər barədə müzakirələrin aparılmasıdır. İstiqamət üzrə QHT nümayəndələri layihə çərçivəsində görəcəkləri işlər barədə geniş məlumat verib, bu istiqamətdə onlayn müzakirələrin təşkili üçün agentliyə təşəkkürlərini bildiriblər.

Müşahidə Şurasının üzvü İsrayıl İsgəndərov "Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar beynəlxalq təşəbbüslərin dəstəklənməsi" istiqaməti üzrə keçiriləcək tədbirlərdə medianın əhəmiyyətini xüsusi vurğulayıb və mətbuatda geniş şəkildə işıqlandırılmasını QHT-lərə tövsiyə edib.

QHT-lər tərəfindən bir neçə təklif səsləndirilib və layihə ilə bağlı suallar cavablandırılıb.

# "Cənub qaz dəhlizi"nin genişləndirilməsi günün tələbinə çevrilir

## İstehsalçı, istehlakçı, tranzit ölkələrin səlahiyyətli nümayəndələri bu barədə nə deyirlər

***Əvvəli 1-ci səh.***

İşlər geniş coğrafi məkanı əhatə edir və çoxşaxəlidir. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson: "Azərbaycan qazının Balkan ölkələrinə qədər çatdırılmasını istəyirik", - deyib. O bildirib ki, Cənub-Şərqi Avropa ölkələrinə "Cənub qaz dəhlizi" gözəl töhfədir. Hazırda enerji bazarında sıxıntı və qiymətli artım müşahidə olunur. Yaxın gələcəkdə bu boru kəmərinin imkanlarını genişləndirmək düşünülür. Xüsusilə Qərbi Balkan istiqamətində genişləndirmə ilə bağlı müzakirələr aparılır.

Şimali Makedoniyanın "Cənub qaz dəhlizi" ilə əlaqələndirilməsini və 2,8 milyard kubmetr həcmdə təbii qazın nəql edilməsini nəzərdə tutan qaz kəmərinin tikintisi ilə bağlı işlər gedir. Şimali Makedoniyanın iqtisadiyyat naziri Kreşnik Bekteşi bildirib ki, bu həcmdə təbii qazın nəql edilməsi həm Şimali Makedoniyanın qaza olan tələbatını ödəməyə kömək edəcək, həm də ölkənin qonşu dövlətlər üçün tranzit əhəmiyyətinin artmasına təkan verəcək.

"Şimali Makedoniya və region dövlətləri alternativ enerji mənbələri tapmaq üçün səylərini əsirgəmirlər. Şimali Makedoniya nəinki özünün, həmçinin region ölkələrinin də iqtisadiyyatına kömək edəcək enerji mənbələrinin şaxələndirilməsi istiqamətində həyata keçirilən layihələrin uğurla başa çatdırılması üçün öz töhfəsini verməyə davam edəcək. Ona görə də biz daha çox yeni enerji təchizatı marşrutlarına sərmayə yatırmalıyıq və bu bizim prioritetlərimizdən biridir. İnanırıq ki, 2023-cü ildə Şimali Makedoniyanın "Cənub qaz dəhlizi" ilə birbaşa əlaqələndirilməsinə nail olacağıq", - deyə nazir əlavə edib.

Monteneqronun Kapital İnvestisiyaları Nazirliyinin dövlət katibi Marko Perunoviç bildirib ki, "Cənub qaz dəhlizi" Qərbi Balkan regionunda yerləşən bütün dövlətlər, o cümlədən Monteneqro üçün çox əhəmiyyətli layihədir. O deyib: "Hələlik Monteneqronun təbii qaza çıxışı yoxdur. Lakin ümid edirik ki, bu, tezliklə mümkün olacaq. Ölkədə təbii qaz tədarükünün həyata keçirilməsinin əsas yollarından biri davamlı enerji istehsalı istiqamətində yeni layihə hazırlamaqdır. Bunun üçün isə "Cənub qaz dəhlizi"nin davamı olacaq İon-Adriatik Boru Kəmərinə ehtiyacımız var. Monteneqro regiondan olan tərəfdaşlarla bu istiqamətdə danışıqlar aparır. Ümid edirik ki, hər hansı razılaşma əldə edilərsə, o zaman biz Avropadan olan tərəfdaşlarımızdan, o cümlədən TAP və "Cənub qaz dəhlizi"nin iştirakçısı olan ölkələrdən də dəstək ala bilərik. Biz inanırıq ki, tezliklə həmin layihəni uğurla həyata keçirəcəyik və davamlı enerji istehsalını təmin etmiş olacağıq".

Bolqarıstanın energetika naziri Aleksandr Nikolov qeyd edib ki, hazırda "Cənub qaz dəhlizi" daha da genişlənir: "Biz Avropa dövlətlərindən olan tərəfdaşlarımızla birgə inanırıq ki, təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsi və enerji təhlükəsizliyinin artırılması məsələlərində "Cənub qaz dəhlizi" layihəsi təkcə Cənub-Şərqi Avropa regionu üçün deyil, həmçinin bütün Avropa İttifaqı ölkələri üçün çox əhəmiyyətlidir. Bundan əlavə, Bolqarıstan və Serbiya arasında interkonnektorun tikintisi layihəsi ilə bağlı yeni imkanlar axtarışındayıq".

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz "Cənub qaz dəhlizi"nin reallaşmasının və kommersiya qazının Avropaya nəqlinin mühüm addım olduğunu vurğulayıb və əlavə edib: "Dəhliz vasitəsilə nəql olunacaq qazın həcmini artırmaq üçün bizə əlavə ehtiyatlar və əlavə resurs ölkələri lazımdır. Bu baxımdan biz regionumuzun rifahı naminə Azərbaycan və Türkmənistanla əməkdaşlığımızı daha da inkişaf etdirməyə hazırıq".

Serbiyanın Baş nazirinin müavini, mədənçilik və energetika naziri Zorana Mixayloviç fikrini belə ifadə edib: "Fevralın 1-də tikitisinə başladığımız və 2023-cü ildə istismara veriləcək Bolqarıstan-Serbiya qaz interkonnektoru bizə Xəzər regionundan, "Cənub qaz dəhlizi"ndən və bir sıra digər mənbələrdən təchizatçılarla əlaqə yaratmağa imkan verəcək. Bununla da təkcə Serbiyanın deyil, o cümlədən bütün regionun enerji təhlükəsizliyinə yüksək səviyyədə töhfə veriləcək".

Rumıniyanın energetika naziri Daniel Popesku ölkəsinin "Cənub qaz dəhlizi"nin Balkanlar və Mərkəzi Avropa istiqamətində genişləndirilməsi planına Rumıniya-Bolqarıstan İnterkonnektoru və BRUA layihəsinin daxil edilməsini bir daha təklif etdiyini nəzərə çatdırıb.

Bosniya və Herseqovinanın xarici ticarət və istisadi əlaqələr nazirinin müavini Ljiljana Lovric və Xorvatiyanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin dövlət katibi İvo Milatic İon-Adriatik Boru Kəməri layihəsinin bu ölkələrdə qaz sektorunun inkişafını təşviq edəcəyini deyiblər.

Xatırladaq ki, keçən il və bu ilin yanvar ayında "Cənub qaz dəhlizi" vasitəsilə Gürcüstan, Türkiyə və Avropa istehlakçılarına 18,5 milyard kubmetrdən çox mavi yanacaq çatdırılıb. Təkcə Avropa ölkələri 8,9 milyard kubmetr Azərbaycan təbii qazı ilə təchiz olunub. Enerji böhranının tüğyan etdiyi bir vaxtda "Cənub qaz dəhlizi"nin nüfuzu və əhəmiyyəti daha da artıb. Təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan bu möhtəşəm layihə ilə bağlı inam və perspektivlər də məhz onun uğurlu fəaliyyətindən irəli gəlir. Bununla əlaqədar Azərbaycanın fikri belədir: "Biz Avropa Komissiyası və əlavə həcmlərdə qaz almaq istəyən və ya qaz idxal və ixrac etmək arzusunda olan ölkələrlə əməkdaşlıq etməyə və "Cənub qaz dəhlizi"nin inkişafına töhfə verməyə hazırıq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi idxal inək, idxal qoyun, idxal qoç, keçi, təkə, arı ailəsi və digər malların alınması və özünüməşğulluq layihəsi çərçivəsində təchizatı işlərinin satın alınması ilə əlaqədar**

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi 27-29 (Əlaqələndirici şəxs: Şahin Qubadov (055) 220 28 58) ünvanından ala bilərlər.

**İştirak haqqı: 3800 (üç min səkkiz yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: "Kapital Bank" ASC-nin 28 May filialı**
**KOD: 200123**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT AIIBAZ2X**
**H/HESABI: AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir (01.02.2022-ci ildən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.02.2022-ci ildən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*9. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığının, təcrübəsinin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);*
*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*11. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
*12. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*13. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
*14. Əsas şərtlər toplusunun 11-ci bəndində qeyd olunan digər sənədlər təqdim edilməlidir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **17 mart 2022-ci il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **01 aprel 2022-ci il saat 15:00-dək** Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi 27-29 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **04 aprel 2022-ci il saat 15:00-da** Bakı şəhəri, Yasamal rayonu, S.Əsgərova küçəsi 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Dünya gündəmi

# Avropa Talibanı tanımır, amma nümayəndələri ilə görüşür

**Əfqanıstanda hakimiyyəti ələ keçirmiş "Taliban" hərəkatının üzvləri insan hüquqlarına riayət olunması və ehtiyacı olan əhaliyə humanitar çıxış məsələlərini müzakirə etmək üçün Cenevrəyə səfər ediblər.**



Taliblərin 10 nəfərdən ibarət nümayəndə heyəti İsveçrədə humanitar, habelə münaqişə zamanı uşaqların müdafiəsi və insan hüquqlarına riayət olunması məsələlərini müzakirə edəcək. Bu barədə nümayəndə heyətini dəvət edən "Geneva Call" qeyri-hökumət təşkilatının direktoru Alen Deletro məlumat verib.

O, qeyd edib ki, "Geneva Call" qeyri-dövlət silahlı qrupları tərəfindən beynəlxalq humanitar hüququn tətbiqini gücləndirməyə çalışır və bir neçə ildir taliblərlə əlaqə saxlayır.

Təşkilatın prioritetində mülki əhalinin əziyyət çəkdiyi piyadalar əleyhinə minalar probleminin həlli və səhiyyə məsələləri durur.

"Cenevrəyə gələn şəxslər Kabildəki hökumət tərəfindən təmsil olunurlar və ümid edirik ki, onlar geri qayıtdıqdan sonra Əfqanıstanda humanitar hüquq normalarına hörmətin təmin olunması üçün lazım olan hər şeyi edəcəklər", - deyə Deletro bildirib.

O vurğulayıb ki, Taliblərin nümayəndə heyəti ilə görüş onların rəsmi tanınması demək deyil.

Deletronun dediyinə görə, humanitar təşkilatla söhbət onları legitimləşdirmir və taliblərin beynəlxalq statusunda heç nə dəyişmir. Onları yalnız beynəlxalq konvensiyalara və beynəlxalq humanitar hüquqa əməl olunması legitimləşdirə bilər.

Həmçinin qeyd olunur ki, İsveçrə Xarici İşlər Nazirliyinin inkişaf və əməkdaşlıq direksiyasının, habelə Asiya-Sakit okean regionu və insan hüquqları ilə məşğul olan struktur bölmələrinin əməkdaşları taliblərlə görüşməyi planlaşdırırlar. Müzakirələr "məxfi çərçivədə" keçiriləcək, - deyə diplomatik qurumda bildiriblər.

Cenevrədə taliblərlə Beynəlxalq Qırmızı Xaç Komitəsi də dialoqu davam etdirmək niyyətindədir.

Xatırladaq ki, yanvarın sonlarında Qərb diplomatları və hüquq müdafiəçiləri Norveçin paytaxtı Osloda "Taliban" hərəkatının nümayəndələri ilə danışıqlar aparıblar. Bu, 2021-ci ilin avqustunda Əfqanıstanda hakimiyyəti ələ keçirən taliblərlə təşkil olunan ilk görüş idi.

Bu yaxınlarda isə məlum oldu ki, taliblər qadınlara universitetlərdə təhsil almağa icazə veriblər, lakin bir şərtlə ki, onlar kişi tələbələrdən ayrı yerləşdirilməlidir.

*Rizvan HİLALOĞLU, "Azərbaycan"*

# Koçaryan-Sarkisyan koalisiyasına növbəti zərbə

## Ermənistanda qeyri-sabit siyasi-iqtisadi vəziyyətə görə intiharların sayı artır, burada yaşayan əcnəbilər isə qaçırlar

*Əvvəli 1-ci səh.*

Ermənistandakı mövcud qanunvericiliyə görə hakimlərə qarşı cinayət işlərinin təfərrüatları açıqlanmır. Bu hadisə isə sabiq prezident Robert Koçaryanın etirazına səbəb olub. O, bəyanat yayaraq növbəti dəfə hakimiyyətə hədələr yağdırıb. Koçaryan məhkəmə hakimi Boris Baxşiyanın həbs edilməsini "hüquqi rüsvayçılığın yeni standartı" adlandırıb. Onun sözlərinə görə, hakimiyyət Ermənistanın qarşısında çətin çağırışlar dayandığı bir vaxtda bütün resurslarını müxalifəti təqib etməyə, işgəncələr verməyə, nəyin bahasına olursa-olsun onları həbsə atmağa yönəldib. Aruş Aruşanyan, Manvel Paramazyan, Narek Mantaşyan və Qarnik İsaqulyan sırf siyasi baxışlarına görə həbs olunublar.

Koçaryan deyib ki, bütün bunların fonunda hakimin ədalətli mühakiməsinə görə həbs olunmasına artıq təəccüblənmirik. Bu, hüquqi biabırçılığın yeni səviyyəsidir. Bu, məhkəmənin müstəqilliyini məhv etmək və həbslərlə hədə-qorxu yartmağın yeni dalğasıdır.

Sabiq prezidentin fikrincə, baş verənlər susqun olan beynəlxalq strukturların iştirakı ilə qanunun aliliyinin dağıdılmasıdır. Cinayət təqibi hakimiyyətin zəifliyini, mürəkkəb çağırışlara tab gətirə bilmədiyini nümayiş etdirir: "Əvəzində hakimiyyət ölkə daxilində qarşıdurmanı yarmaq üçün hər şeyi edir. Bu proseslər uzun sürə bilməz, axırda onların sonu gələcək. Tezliklə cavab verməyin vaxtı çatacaq".

Koçaryan özü də yaxşı bilir ki, siyasi sferada hərbi xuntanın dayaqları çoxdan sıradan çıxarılıb. Əslində, 44 günlük Vətən müharibəsinin nəticələrini əsas götürən müxalifət etiraz aksiyaları təşkil edərək Nikol Paşinyanı bu yolla hakimiyyətdən uzaqlaşmağa vadar edəcəyini düşünsə də, hadisələrin sonrakı gedişi bu qüvvələrin yanıldığını göstərdi. Sabiqlər müharibədə Ermənistanın məğlubiyyətinin əsas səbəbkarı qismində Nikol Paşinyanı təqdim edərək, cəmiyyəti baş nazirə qarşı qaldırmağa çalışsalar da, bu istiqamətdə fiaskoya uğradılar. Hakimiyyətdən narazı olan erməni cəmiyyətində müxalifətə də heç bir inamın olmadığı, bu düşərgəyə etimad göstərilmədiyi üzə çıxdı.

Siyasi proseslərin fonunda sosial-iqtisadi sahədə dərin böhran yaşayan Ermənistanda yoxsulluq həddi də gündən-günə yüksəlir. Qeyd olunur ki, əməkhaqqının, pensiya təminatının artmadığı bir ölkədə əksinə çörək, süd, ət və digər zəruri ərzaq məhsullarının qiymətləri gündən-günə artır, inflyasiya həddi, işsizlik göstəriciləri yüksəlir.

Bütün bunlar isə intihar edənlərin sayının artmasına gətirib çıxarmaqdadır. Milli təhlükəsizlik xidməti 2019-2021-ci illər ərzində ölkədə qeydə alınan intihar və intihara cəhd hallarına yekun vurub. Açıqlanan məlumata görə, intihar edənlərin sayı artıb. 2019-cu ildə 153, 2020-ci ildə 183, 2021-ci ildə 191 nəfər intihar edib. İntihara cəhd edənlərin əksəriyyəti 30-65 yaş arasındadır.

Ermənistanda daha çox kişilər intihar edirlər. Məsələn, 2021-ci ildə qeydə alınan 191 hadisədən 156-sı kişi, 35-i qadındır. 2021-ci ildə 7 yeniyetmə, 2020-ci ildə 5 yeniyetmə intihar edib. 2019-cu ildə 16, 2020-ci ildə 12, 2021-ci ildə 12 uşaq intihara cəhd edib.

Qeyri-sabit siyasi-iqtisadi vəziyyət əcnəbilərin ölkədən getməsinə də səbəb olur. Ermənistanın əmlak alqı-satqısı üzrə statistik göstəricilərinə əsasən, ötən il əcnəbilərin Ermənistandakı əmlaklarını satması əvvəlki illərlə müqayisə 2-3 dəfədən çox artıb. Belə ki, 2021-ci ildə Ermənistanda əcnəbilər tərəfindən 4742 əmlak alqı-satqısı olub. 1587 daşınmaz əmlak alınıb, 3155-i isə satılıb. Yəni əcnəbilər Ermənistanda aldıqları əmlakdan 2 dəfə çoxunu satıblar. Bu da artıq Ermənistandakı əcnəbilərin ölkəyə etibarının itdiyinin və tezliklə ölkəni tərk etmək istəməsinin göstəricisidir.

Ermənistanın kənd təsərrüfatına yatırım edən əcnəbilər də artıq ölkədən getməyə çalışırlar. 2021-ci il ərzində Ermənistanda xarici ölkə vətəndaşları tərəfindən kənd təsərrüfatına yararlı 5 torpaq sahəsi alınıb. Qarşılığında isə 516 bu tipli torpaq sahəsi əcnəbilər tərəfindən satılıb. Yəni artıq xarici vətəndaşların Ermənistanın kənd təsərrüfatı torpaqlarına marağı kəskin azalıb. Digər bir ciddi məqam isə odur ki, xarici vətəndaşlar Ermənistanda olan şəxsi mənzillərini satırlar. Bu isə əcnəbilərin kütləvi şəkildə Ermənistanı tərk etmək istəməsi ilə əlaqəlidir. 2021-ci ildə əcnəbilər tərəfindən 1279 mənzil satılıb. Bu rəqəm 2020-ci ildə 600 mənzil civarında idi.

Belə vəziyyət, həqiqətən, Ermənistanın sürətlə məhvə yaxınlaşdığını göstərir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Yardımlı rayonunda sərhədboyu ərazidə tapılan bağlamada 12 kiloqram narkotik vasitə aşkarlanıb

Dövlət sərhədlərinin mühafizəsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilir.



Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 7-də Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin hərbi qulluqçularının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayonunun Arus kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sərhədboyu ərazidə sahibsiz bağlama aşkarlanıb.

Bağlamaya baxış zamanı təxmini çəkisi 12 kiloqram olan narkotik vasitəyə (10 kiloqram 70 qram heroin, 1 kiloqram 25 qram metamfetamin) bənzər maddələr aşkarlanaraq götürülüb.

Faktla bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

# OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
**gəmilərində quraşdırılan səsgücləndirici və yayım avadanlıqları üçün ehtiyat hissələrin satın alınması məqsədilə**
***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 fevral 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
**gəmilərində quraşdırılan radionaviqasiya avadanlıqları üçün ehtiyat hissələrin satın alınması məqsədilə**
***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 fevral 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
**struktur idarələrinə tələb olunan boya qatqılarının satın alınması**
***məqsədilə müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi akademik Arif Həşimova qardaşı

**FİKRƏT HƏŞİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova AMEA-nın 1-ci vitse-prezidenti vəzifəsini icra edən akademik Arif Həşimova və yaxınlarına əzizləri

**FİKRƏT HƏŞİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Boks Federasiyasının rəhbərliyi və kollektivi tanınmış idman mütəxəssisi, boks üzrə beynəlxalq dərəcəli hakim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

**RAMİZ YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə, Qazılar Şurası və idarənin kollektivi Qazılar Şurasının üzvü Ceyhun Rüstəmova anası

**HİMAYƏ YƏHYA QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5419
Sifariş 382
Qiyməti 40 qəpik